# DÜNYA ŞÖHRƏTLİ ALİM, KARİKATURAÇI-RƏSSAM

# Tərtibçi və ideya müəllifi:

***RAUF İLYASOĞLU***

*"Həkəri" qəzetinin baş redaktoru,*
*Qızıl qələm media mükafatı laureatı*

*Kitabda dünya şöhrətli alim Kərim Kərimovun elm sahəsindəki uğurları, ixtiraları və kəşfləri haqqında qısa məlumat verilmişdir. Eyni zamanda karikaturaçı-rəssamın əsərləri ilə yanaşı alimin dostlarının xatirələri də toplanmışdır.*

*"Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır.*

***HEYDƏR ƏLİYEV***



*"Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaşaması üçün ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir".*

***HEYDƏR ƏLİYEV***



*"Azərbaycanın yeni neft strategiyası bu gün ölkəmizin uğurlu inkişafını təmin edir".*

***İLHAM ƏLİYEV***





# KƏRİM MƏMMƏDXAN OĞLU KƏRİMOV



1933-cü ildə Ağdam şəhərində anadan olub.

1957-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu (indiki

Azərbaycan Dövlət Neft və Sənaye Universiyteti) bitirmişdir.

1957-1960-cı illərdə - Respublikanın müxtəlif komsomol təşkilatlarında rəhbər vəzifələr tutmuşdur.

1960-1961-ci illərdə - AEA-nın DNQYPİ-da baş mühəndis vəzifəsində işləmişdir.

1961-1964-ci illər ərzində Az.ETİ NÇ-də aspiranturada oxumuşdur.

1964-cü ildə elmlər namizədliyi dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və geologiya-minerologiya elmləri namizədi adını almışdır.

1975-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1965-1992-ci illərdə Azərbaycan Geofizika ETİ-də müxtəlif vəzifələrdə çalışmışdır (bölmə müdiri, laboratoriya və şöbə müdiri, direktor əvəzi).

1992-ci ildən 2006-ci ilə qədər ARDNŞ "Geofızika və Mühəndis Geologiyası" İB Baş direktoru olmuşdur.

1990-cı ildə - Geofizika üzrə professor;

1991-ci ildə - AR “Əməkdar Elm və Texnika Xadimi”;

1993-cü ildən indiyə qədər Lütfı-Zadə adına Akademiyanın BDU nəznində olan akademiki və rəyasət heyətinin üzvi;

1993-2008-ci il - Azərbaycan Milli Geofızika Komitəsinin Prezidenti;

1994-cü ildən indiyə qədər ABŞ Kəşfıyatcı-Geofiziklər Cəmiyyətinin (SEG) Azərbaycan bölməsinin prezidenti;

1995-ci ildən - Beynəlxalq Ekoenergetika Akademiyasının (BEA) Akademiki;

1997-ci ildən - BEA-nin vitse-prezidenti;

2001-ci ildən - Azərbaycan Milli Elmlər Akademiyasının Müxbir üzvi;

2002-ci ildən - Avropa Elmlər Akademiyasının Akademiki;

2003-cü ildən - Beynəlxalq Şərq Neft Akademiyasının Akademiki seçilmişdir.

2006-2008-ci illərdə ARDNŞ "Geofizika və Geologiya" İdarəsində Elmi İşlər üzrə Baş Müşavir vəzifəsində işləmişdir.

Professor Kərim Kərimov neft və qaz geologiyası, regional geologiya və geotektonika sahəsində ölkəmizdə və onun hüdudlarından çox-çox uzaqlarda tanınmış alimdir.

Onun rəhbərliyi altında aparılan Yer qabığının dərinlik quruluşun və onun inkişafın, termobarik, termodinamik vəziyyətin öyrənilməsinə və çöküntü süxurların neftli qazlılığının qiymətləndirilməsinə dair elmi-tədqiqat işləri böyük elmi və praktiki əhəmiyyət kəsb etməkdə və bu istiqamətdə görülmüş işlər içərisində xüsusi yer tutmaqdadır. Aparılmış geniş miqyaslı işlər nəticəsində o, Azərbaycanın çıxarıla bilən neft ehtiyatının yenidən qiymətləndirilməsinə nail olmuşdur.

Professor K.M.Kərimov 550-dən artıq çap olunmuş elmi əsərlərin, o cümlədən 18 monoqrafiya, 28 ixtira və 135-dən

artıq müxtəlif atlas və xəritələrin müəllifidir. Apardığı geniş miqyaslı elmi-tədqiqat işləri ilə yanaşı, o, həmçinin yüksək ixtisaslı elmi kadrların hazırlanmasında da böyük işlər görmüşdür. Belə ki, onun rəhbərliyi altında 15 elmlər namizədi və 3 elmlər doktoru hazırlanmış və uğurla müdafiə edilmişdir.

1997-ci ildə Onun tərəfindən “Azərbaycanda Geofizika Yenilikləri” adlı elmi jurnal təsis edilmiş və həmin jurnal bu gün də üç dildə - Azərbaycan, rus və ingilis dillərində işıq üzü görməkdədir. Eyni zamanda, professor K.M.Kərimov “Kainat”, “AMEA Xəbərləri” jurnallarının redaksiya heyətinin üzvüdir.

Professor K.M.Kərimovun müxtəlif elmi problemlərin həllində Beynəlxalq və Respublika miqyaslı elmi seminar, konfrans və simpoziumların hazırlanması və keçirilməsində göstərdiyi böyük səyləri daimi yüksək qiymətləndirilmiş və o, müxtəlif diplom və mükafatlarla təltif

olunmuşdur: “Yer təkinin kəşfiyyatı əlaçısı”, Sülhün Müdafiəsi Komitəsinin Diplomu, eləcə də Sovet İttifaqı KP MK-nin, SSRİ Nazirlər Sovetinin, ÜİLKİ MK-nin və həmçinin keçmiş Sovet İttifaqı Geologiya Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Son 10 ildə geoloji elmlərin inkişafına verdiyi töhfələr və ölkənin ictimai-siyasi həyatında aktiv roluna görə professor K.M.Kərimov dəfələrlə "ilin adamı”, “ilin alimi” və “ilin ixtiraçısı” adına layiq görülmüşdür.

2001-ci ildə professor K.M.Kərimov müasir Azərbaycanın banisi H.Əliyev tərəfindən “Şöhrət” ordeni ilə təltif olunmuşdur. Elə həmin ildən də o, Milli Elmlər Akademiyasının Müxbir üzvü seçilmişdir.

Son vaxtlar professor K.M.Kərimov Qafqaz və ona bitişik olan digər regionlarda geofiziki üsulların tətbiqi ilə geodinamik şəraitin öyrənilməsinə daha çox diqqət yetirmişdir. Belə ki, 2002-2006-cı

illər arasında bu istiqamətdə aparılan işlərin təzahürü olaraq o, 7 (yeddi) patent almışdır ki, bunlardan da 2-si (iki) Avroasiya Patent Təşkilatı tərəfindən verilmişdir. Patentdə öz əksini tapmış işlərin daha dərindən öyrənilməsi və tətbiqi şübhəsiz ki, zəlzələ və bu kimi təbii fəlakətlər zamanı çoxsaylı insan tələfatının qarşısını almaq məqsədilə zəlzələ barədə öncədən xəbərdarlıq etmək və bununla da maddi-mənəvi zərərlərin azalmasına gətirib çıxarar.

Professor Kərim M.Kərimov 2008-ci ildən indiyə qədər Bakı Dövlət Universitetinin Geologiya fakültəsi Dövlət Komissiyasının Bakalavr buraxılışı üzrə sədridir.

# КЕРИМ МАМЕДХАН ОГЛЫ КЕРИМОВ

5 июня 1933 года родился в городе Агдаме Азербайджанской республики.

В 1957 году окончил Азербайджанский Индустриальный институт им. М.Азизбекова (ныне Азербайджанская Государственная Нефтяная Академия) по специальности горного инженера-геофизика.

1957-1960 гг. - занимал руководящие должности в аппаратах ЦК и Бакинского Горкомов Комсомола.

1960-1961 гг. - ст.инженер ИПГНГМ АНАР.

1961-1964 гг. - аспирант АзНИИ по ДН.

1964 г. - защитил кандидатскую диссертацию.

1965 г. - член Союза Журналистов и Художников Азербайджана.

1975 г. - защитил докторскую диссертацию.

1990 г. - профессор по геофизике.

1991 г. - Заслуженный деятель науки и техники Азербайджана

1993-2008 гг. - Президент Национального Комитета Геофизиков

Азербайджана

1994 г. - по настоящее время Президент Азербайджанского отделения Американского Общества разведчиков-геофизиков (SEG).

1995 г. - Академик и витце-президент Международной Экоэнергетической Академии.

1997 г. - Академик и член Президиума Азербайджанского отделения Академии им. Профессора Лютфи-заде, при БГУ.

2001 г. - Чл.корр. Национальной Академии Наук Азербайджана

2002 г. - Академик Международной Европейской Академии Наук

2003 г. - Академик Восточной Нефтяной Академии.

1965-1992 гг. - занимал различные должности в АзНИИГеофизике (был ст.н.с., зав. сектором, зав. лабораторией, зав. отделами, и.о. директора).

1992-2005 гг. - Генеральный директор ПО «Геофизики и инженерной геологии» ГНКАР.

С января 2006-2008 гг. Главный Советник Управления Геофизики и Геологии ГНКАР по науке.

К.М.Керимов - видный учёный в области нефтяной и региональной геологии, геотектоники, геофизических методов разведки и исследований нефтяных и газовых месторождений. Он известен как автор комплекса методов применения геолого-геофизических информаций для изучения глубинного строения земной коры и развития литосферы Земли, термобарического и термодинамического состояний осадочного

покрова Земной коры, а также прогнозирования и изучения нефтегазоносности недр депрессионных областей Закавказья и бассейна Каспийского моря.



Значительный вклад им внесен в открытие и освоение ряда нефтегазовых месторождений региона. Благодаря упорному труду профессор К.М. Керимов, добился полного пересмотра данных о запасах нефти и газа в регионе, значительно расширив и увеличив их по всему Азербайджану и его национальному сектору в акватории Каспия.

Он автор более 550 опубликованных работ, в том числе 18 монографий, 28 изобретений, более 135 атласов и карт различного назначения, которые и сегодня оказывают неоценимую помощь геологам и геофизикам республики а также их зарубежным коллегам в выборе наиболее рациональных путей ведения поисково-разведочных работ на нефть и газ в регионе.

Наряду с активной научной деятельностью, он проводит и большую работу по подготовке высококвалифицированных научных кадров как для нефтяной промышленности Азербайджана, так и ряда зарубежных стран (России, Вьет-

нам, Сирии, Египта, СНГ и др.). Им подготовлено15 кандидатов и 3 доктора наук.

В 1997 году он создал и организовал выпуск на азербайджанском, английском и русском языках журнала «Геофизические новости Азербайджана» и в течение 10 лет, до 2008 г., как Главный редактор, успешно руководил его деятельностью. Одновременно он член редколлегий журналов «Каинат» (Вселенная). «Доклады НАНА» и др. в деятельность которых вносит существенный вклад.

За труд, вложенный в решение многих научных проблем, а также в организацию и проведение многочисленных научно- технических конференций, симпозиумов и семинаров международного и республиканского значении он неоднократно удостаивался различных наград: «Отличник разведки недр», Диплом Советского Комитета защиты мира, Почетными грамотами ЦК КПСС, Совета Министров СССР, ВЦСПС, ЦК

ВЛКСМ, а также Министерства Геологии бывшего Советского Союза.

За последние 10 лет за вклад в развитие геологической науки и активное участие в общественно-политической жизни страны его неоднократно называли «человеком», «учёным» и «изобретателем» года.

Он награжден дипломом и золотой медалью «Человек года» Американского Биографического Центра (1998, 1999 гг.), дипломом и серебряной медалью «За заслуги в XX веке» Кембриджского Биографического Центра (2000 г.).

В 2001 году Президентом Азербайджан он был награжден орденом «Слава».

В том же 2001 году он был избран членом-корреспондентом Национальной Академии Наук Азербайджана.

Большие заслуги у профессора К.М.Керимова также и в решении проблем связанных с изучением (на основании геофизических данных) геодинамической обстановки на Кавказе и в смежных с ним областях. Так лишь в пе-

риод с 2002 по 2006 г. на соответствующие изобретения им получены 7 (семь) патентов. 2 из которых выдан ему Евразийским Патентным Ведомством. Развитие и применение на практике приведённых в них методов и способов, несомненно, позволят избавить человечество от ужасов и пагубных последствий катастрофических землетрясений.

1) Патент № 007086 «Способ прогнозирования землетрясений» (2006 г.);

2) Патент № 007087 «Способ краткосрочного прогнозирования землетрясений» (2006 г.).

Пофессор Керим М.Керимов начиная с 2008 года является Председателом Государственной Комиссии БГУ по выпуску Бакалавров.

# KERIM MAMMEDKHAN OGLU KERIMOV

Was born in 1933, 5 June in Agdam city of Azerbaijan Republic

In 1957 graduated from Azerbaijan Industrial Institute (today named as the Azerbaijan State Oil Academy) at the specialty of mining engineer-geophysicist.

1957-1960y. - took up leading posts in the machinery of Central Komsomol committee of Azerbaijan (Baku city).

1960-1961y. - senior engineer of deep oil and gas fields the Institute problems of the Academy of Sciences of the Azerbaijan Republic.

1961-1964y. - post-graduate of Azerbaijan Industrial Institute in Exploitation of Oil and gas deposit.

1964y. - defended Ph.D. thesis (dissertation for a candela’s).

1965y. - member of Azerbaijan pressman and artist association.

1975y. - defended a doctoral thesis (dissertation).

1990y. - Professor in geophysics.

1991y. - honored worker of science and engineering of Azerbaijan.

1993y. - was the President of National Geophysicist Committee of

Azerbaijan-2008

1994y. - till now is the President of Azerbaijan department of the American Society of Exploration Geophysicist (SEG)

1995y. - till now academician and vice-president of the International Ecoenergy Academy

1997y. - academician and member of presidium of Azerbaijan department of the Academy named after professor Lutfi-zade.

200ly. - Corresponding Member of the Azerbaijan National Academy of sciences.

2002y. - academician of European Academy of sciences .

2003y. - academician of International Eastern Oil Academy.

1965-1992y. - took up various posts in Azerbaijan National Industrial Geophysics Institute (he was senior researcher, branch manager, head of the laboratory, department manager and executive director).

1992-2005y. - General Director of the Manufacturing Association “geophysics and engineering geology” of SOCAR.

From January 2006 till 2008 y he is the Chief adviser of Geophysics and Geology Department of SOCAR in science.

K.M.Kerimov is the prominent scientist in the oil and Gas field, regional geology, geotectonics, geophysical exploring techniques and exploring of oil and gas fields. He is known as the author of the complex techniques application of geological and geophysical data for exploring deep structure of the earth's crust and development of the earth’s lithosphere, thermobaric and thermo dynamical state of sedimentary cover of

the earth's crust and also prediction and exploration of oil-and-gas deposit of the interior of Transcaucasus and the Caspian Sea depression areas.

A considerable contribution was made by him in a strike and development of a number of oil and gas fields of the region. Due to hard work, professor K.M.Kerimov has strived for complete data revision of petroleum and gas reserves in the region, having considerably expanded and increased them throughout Azerbaijan and its national sector in Caspian sea area.

He is the author of more than 550 published titles, including 18 monographs, 28 inventions, more than 135 atlases and maps of different purpose, which even today are of invaluable assistance to the geologists and geophysicists of the republic and also to their foreign colleagues in selection of the most rational ways of the oil and gas exploration in the region.

Along with the active scientific activity, he keeps training of highlyqualified

personnel in science both for the oil industry of Azerbaijan and for a number of foreign countries (Rusian, Vietnam, Syria, Egypt, CIS and other countries). He trained 15 candidates and 3 doctors of science.

In 1997 he organized edition of the new magazine "Geophysical news in Azerbaijan" in Azerbaijani, English and Russian languages and during 10 years has successfully been the chief editor of the same magazine. At the same time he is a member of editorial boards of the magazines such as "AOI" (Azerbaijan Oil Industry), "Kainat" (Universe), "Reports of the National Academy of Sciences of Azerbaijan", "Vishka" newspaper and other editions and he contributes much to their activity.

For his hard work in solving many scientific issues, organization and holding of many scientific and technological conferences, symposium and seminars on the international and republican scale, he has been many tjmes awarded as: "The

best in exploring of the earth's interior", The Diploma of the Soviet Committee for peace defense, diplomas of Central Committee of the CPSU, Council of Ministers of the USSR, the All-Union Central Council of Trade Unions, Central Committee of All-Union Lenin Young Communist League, and also Ministry of geology of the former USSR.

For the last 10 years for his contribution to the development of geology and active participation in social and political life of the country, he has been many times named as the "man", "scientist", and "inventor" of the year.

He was awarded the diploma, gold medal as "Man of the year" of American Biographical Center (1998, 1999 y.), the diploma and silver medal "For contribution in XX century" of Cambridge Biographical Center (2000y.).

In 2001 he was awarded the "Fame" order by the President of Azerbaijan.

In the same year he was elected as Corresponding Member of the National Academy of sciences of the Azerbaijan.

Professor K.M.Kerimov has great services in solving the problems related to the research on the basis of geophysical data of geodynamical conditions at the Caucasus and neighboring areas. Only from 2002 to 2006 he took out 7 patents for his inventions and two of which were granted by Eurasian Patent Office. Development and practice of the methods and means indicated in the patents, may undoubtedly allow saving mankind from horrors and fatal consequences of disastrous earthquakes.

1. Patent № 007086 “Earthquake prediction method” (2006y.)

2. Patent № 007087 “Earthquake short-term prediction method” (2006y.)

For more information visit www.kerimkerimov.az.

# كريم بن محمدخان كريموف

ولدت في 5 يونيوعام 1933 في مدينة أغدام في جمهورية أذربيجان

في عام 1957 تخرج من معهد أذربيجان الصناعي (اليوم يدعى أكاديمية النفط الحكومية الأذربيجانية) في تخصص مهندس جيوفيزياء التعدين

1957-1960 - تولى المناصب القيادية في آلية لجنة كومسومول أذربيجان المركزي (مدينة باكو) أذربيجان.

1960-1961 - مهندس كبير من معهد مشاكل حقول النفط والغاز لدى أكاديمية العلوم الوطنية الاذربيجانية.

1961-1964 - الدراسات العليا من معهد أذربيجان الصناعي في استغلال النفط والغاز.

1964 - دافع رسالة دكتوراه

1965 - العضو في جمعيتي الاعلامي الاذربيجاني والفنان.

1975 - دافع عن أطروحة الدكتوراه (أطروحة)

1990 - أستاذ في الجيوفيزياء.

-1991 - عامل تكريم للعلوم والهندسة في أذربيجان.

1993 - كان رئيس اللجنة الوطنية للجيوفيزيائيأذربيجان عام 2008

1994- حتى الآن هو رئيس القسم ألاذربيجاني من الجمعية الأمريكية لاستكشاف جيوفيزيائي(SEG)

1995y- حتى الآن أكاديمي ونائب رئيس الأكاديمية الدولية

1997- الأكاديمي والعضو في رئاسة القسم الأذربيجاني الأكاديمية التى تحمل اسم أستاذ لطفي زاده.

200l -عضو مراسل في أكاديمية العلوم الوطنية الأذربيجانية.

2002 - أكاديمي من الأكاديمية الأوروبية للعلوم.

2003 - عضو اكاديمية النفط الدولية للشرق.

1965-1992- تولى العديد من المناصب في معهد الجيوفيزياء الصناعية الوطنية الأذربيجانية (كان كبير الباحثين، مدير فرع، رئيس مختبر، مدير الإدارة والمدير التنفيذي).

1992-2005- مدير عام التصنيع جمعية "الجيوفيزياء والجيولوجيا الهندسية" سوكار.

خلال الفترة من يناير 2006 حتى 2008 ص وهو مستشار كبير للجيوفيزياء وقسم الجيولوجيا سوكار في العلم.

كريم بن محمدخان كريموفهو العالم البارز في مجال النفط والغاز، والجيولوجيا الإقليمي، جيوتكتونيك، وتقنيات الاستكشاف الجيوفيزيائي، واستكشاف حقول النفط والغاز. وهو معروف بأنه صاحب تطبيق تقنيات معقدة من البيانات الجيولوجية والجيوفيزيائية

لاستكشاف بنية عميقة من القشرة الأرضية وتطوير الغلاف الصخري للأرض، حراري والحرارية دولة الديناميكية الغطاء الرسوبي من القشرة الأرضية وأيضا التنبؤ والتنقيب عن النفط إيداع-والغاز في المناطق الداخلية من القوقاز والمناطق الاكتئاب في بحر قزوين.

كريم بن محمدخان كريموفقدم مساهمة كبيرة في ضربة وتطوير عدد من حقول النفط والغاز في المنطقة. بسبب العمل الشاق، سعى أستاذلتنقيح بيانات كاملة من احتياطيات النفط والغاز في المنطقة، بعد أن قام بتوسيها بشكل كبير في جميع أنحاء أذربيجان وقطاعها الوطني في منطقة بحر قزوين.

وهو مؤلف من أكثر من 550 منشورة، بما في ذلك 15 دراسات، 20 اختراعا، أكثر من 135 اطلاسا وخريطة وخرائط لأغراض مختلفة، والتي حتى اليوم لها مساعدة لا تقدر بثمن لعلماء الجيولوجيا والجيوفيزياء الجمهورية وأيضا لزملائهم الأجانب في اختيار أكثر الطرق عقلانية للتنقيب عن النفط والغاز في المنطقة.

جنبا إلى جنب مع النشاط العلمي النشط، يشتغل بتدريب الموظفين الاباقرة في العلم على حد سواء في صناعة النفط في أذربيجان كما يشتغل في عدد من الدول الأجنبية( روسيا ، فيتنام، سوريا، مصر، رابطة الدول المستقلة وبلدان أخرى). وانجب 15 عالما و 3 دكاترة.

في عام 1997 قام بتنظيم طبعة من مجلة جديدة "الأخبار الجيوفيزيائي في أذربيجان" في أذربيجان بالانجليزية والروسية وخلال 10 عاما رأس بنجاح تحرير المجلة نفسها. في الوقت نفسه انه هو عضو في هيئات تحرير المجلات مثل صحيفة "Vishka"وغيرها من "الهيئة العربية للتصنيع" (أذربيجان صناعة النفط)و " Kainat " ( الكون)، "تقارير من أكاديمية العلوم الوطنية الأذربيجانية .

على عمله الشاق في حل المسائل العلمية كثيرة، تنظيم وعقد العديد من المؤتمرات والندوات والحلقات الدراسية على المستوى الدولي والجمهوري العلمية والتكنولوجية، كثيرا ما كان يقول : "الأفضل في استكشاف من باطن الأرض"، و دبلوم لجنة السوفيتي للدفاع عن السلام والدبلومات للجنة المركزية للحزب الشيوعي، ومجلسوزراء الاتحاد السوفياتي، والمجلس المركزي لعموم الاتحاد لنقابات العمال، اللجنة المركزية لعموم الاتحاد لينين رابطة الشباب الشيوعي، وأيضا وزارة الجيولوجيا من الاتحاد السوفياتي السابق.

على مدى السنوات ال 10 الماضية لمساهمته في تطوير الجيولوجيا والمشاركة الفعالة في الحياة الاجتماعية والسياسية في البلاد، وقال انه تم عدة مرات على لقب "رجل"، "عالم"، و "مخترع" من السنة.

حصل على دبلوم، بالميدالية الذهبية بأنه "رجل العام" من المركز الأمريكي للسير الذاتية (1998، 1999 ص.)، وميدالية دبلوم والفضة "للمساهمة في القرن العشرين" من مركز السيرة الذاتية كامبريدج عام 2000 في عام 2001رئيس أذربيجان حيدر علييف تقدم له جائزة "شهرة".

وفي العام نفسه انتخب عضو مراسل في الأكاديمية العلوم الوطنية الاذربيجانية.

إن أستاذ كريم بن محمدخان كريموف له خدمات كبيرة في حل المشاكل المتعلقة ببحوث على أساس البيانات الجيوفيزيائية ظروف الخيوديناميكال في القوقاز والمناطق المجاورة. خلال 2002-2006 أخرج 7 براءات اختراعاته ومنحت اثنتان منها من قبل مكتب براءات الاختراع الأوروبية الآسيوية. تطوير وممارسة أساليب ووسائل المشار إليها في براءات الاختراع، مما لا شك فيه انها تسمح إنقاذ البشرية من أهوال وعواقب وخيمة من الزلازل الكارثية.

1. براءات № 007086 "طريقة التنبؤ زلزال" (2006).

2. براءات الاختراع № 007087 "زلزال على المدى القصير طريقة التنبؤ" (2006).

لحصول على مزيد من المعلومات : www.kerimkerimov.az.

# KERİM MEMMEDHAN OĞLU KERİMOV

Prof. Kerim Memmedhan oğlu Kerimov Azerbaycan'ın ünlü jeolog-jeofizikçilerinden biri olarak tanınmaktadır. Onun 50 seneden fazla devam eden bilimsel çalışmaları sonucu olarak Azerbaycan'ın petrollü-gazlı bölgelerinin derinlik yapısı incelenmiş, petrol jeolojisi ve jeofıziği sahasında birkaç temel bilimsel araştırma gerçekleştirilmiştir. Derin kuramsal incelemelerin yanı sıra Prof. Kerim M.Kerimov aynı zamanda ilmi-pratik çalışmalarla da meşgul olmuş, onun tavsiyeleri esasında bir kaç petrollü-gazlı tabakalar keşfedilmiştir.

Azerbaycan ve genel olarak Kafkasyanın jeodinamik özelliklerinin incelenmesinde Kerim beyin emeği büyüktür ve bu alanda O, çok faydalı işler görmüş bilim adamıdır. Günümüze kadar K.M.Keri-

mov'un kaleminden 550 den fazla bilimsel eser (bunlardan bir kaçı monografik olarak) ve ihtiralar yapmıştır. Bu eserlerden bir çoğunun yurtdışında yayımlanması, K.Kerimov'un uluslararası otorite sahibi olmasını kanıtlamaktadır.

Prof. K.Kerimov'un takipçileri Azerbaycan'ın, B.D.B. ve diğer yabancı ülkelerin çeşitli alanlarının petrol ihtisasında başarı ile çalışmaktadırlar.

Prof. K.M.Kerimov bir kaç devlet ödülü ile mükafatlandırılmıştır. O,

Azerbaycan Cumhuriyeti'nde Yararlılık göstermiş bilim adamı yetiştirmiş, Uluslararası Ekoenergetika Akademisi'nin, Uluslararası Doğu Petrol Akademisi'nin, Lütfı-Zade adına Uluslararası Çağdaş Bilimler Akademisi'nin akademisyonu seçilmiş, Azerbaycan Milli Jeofızik Komitesi'nin Başkanı ve Society of Exploration Geophysics (SEG) Azerbaycan şubesinin başkanıdır.

Kerim bey 1998 de Amerika Biyografı Enstitüsü tarafından “Yılın adamı” seçilmiş, 1999 yılında aynı Enstitü ona “Şöhret” madalyası vermiş, 2000 de Cambridge Uluslararası Biyografı merkezi ona “XX yüz yılda başarılarına göre gümüş madalya” ve diploma verilmiştir.

1983 yılında o eski Sovyetler Birliği’nin Barış Koruma Konseyi tarafından diploma ile mükafatlandırılmıştır.

O, jeofıziğin çeşitli konularını kapsayan birkaç uluslararası konfrans ve seminerler organize etmiş, muhtelif ülkelerde geçirilmiş jeofızik konfranslarının işine katılmışdır.

Prof. K.M.Kerimov aynı zamanda Azerbaycan’da ve cumhuriyetten çok uzaklarda hiciv ve politik alanda azimle çalışan karikatürcü, ressam, barış ve halklar arasında dostluk uğrunda savaş yapan bir kişi gibi tanınmaktadır.

Bilim adamı ressamın son yıllarda ortaya çıkardığı posterlerin esas konusu Erme-

nilerin Azerbaycan Cümhuriyeti’ne ve onun barışsever halkına karşı yürüttüğü istilacılık ve soykırım politikasını, Türkiye ve Türkdilli ülkelere, onların halklarına yönelik siyasi kampanyasını açıkca ortaya koymaktır.

K.M.Kerimov’un çizdiği karikatürler ve politik posterler Bakü’de, Moskova’da, Saint.Petersbourg’da ve İstanbul’da düzenlenmiş 18 kişisel sergide sergilenmiştir. Bu karikatürlerde adalete, barışa, bu veya başka şekilde baskı yapan veya yapmak isteyen güçlere karşı mücadele motifleri canlandırılmaktadır.

# ZƏLZƏLƏ KİTABI BARƏDƏ

Məlum olduğu kimi bəşəriyyət üçün ən təhlükəli təbii hadisələrdən biri zəlzələlərdir.

Dünya miqyasında zəlzələlərin insanlara vurduğu ziyan demək olar ki, heç bir ölçüyə sığmayan və qarşısı alınmaz bir bəladır.

Belə dağıdıcı və dözülməz dəhşətlər minlərlə insanların böyük miqyasda tələf olmalarına səbəb olur. Belə dəhşətli zəlzələlər elə bu yaxınlarda bir çox dövlətlərin (Çin, Pakistan, ABŞ, Latın Amerikasında və s.) ərazilərində baş vermişdir.

Harada olursa-olsun zəlzələ zamanı kəndlər, qəsəbələr, şəhərlər və başqa tikintilər, çox zaman milyardlar dollarla hesablansa da, insan itkisi hamımızı daima ağrıdaraq ən acı faciələrə səbəb olur.


KƏRİM M. KƏRİMOV
ZƏLZƏLƏ
earthquake
землетрясение
deprem
öncədən proqnoz

Qeyd etmək lazımdır ki, belə və buna bənzər itkiləri azaltmaq üçün ən vacib problemlərdən başlıcası - zəlzələ olacağı barədə öncədən lazımi xəbər verməkdir.

Bu istiqamətdə görülən işlərin içərisində ən vacib və nəticəli olan iş professor Kərim Kərimovun rəhbərliyi altında aparılan geofiziki və seysmoloji tədqiqatlardır. Bu sahədə beynəlxalq təşkilatlar tərəfindən verilmiş patentlər (007087 və 007086) görkəmli alimin kəşflərinə verilən qiymətdir.

Hesab edirəm ki, biz alimlər, bu problemə həsr olunmuş və dörd dildə nəşrə hazırlanmış kitabla Kərim müəllimi ən yüksək nailiyyətlər münasibətilə təbrik edək  və onun tezliklə nəşr olunmasını arzulayırıq.

**Telman ƏLİYEV**
***AMEA Kibernetika İnstitutunun direktoru, Akademik, 2010-cu il***

# ELM FƏDAİSI KƏRİM KƏRİMOV

## *Zəlzələni öncədən kəşf edən alim, karikaturaçı-rəssam*

Azərbaycan nefti olmasaydı, keçmiş 15 müttəfiq respublikalardan təşkil olunmuş Sovet imperiyası alman faşistlərinə qalib gələ bilməzdi. Azərbaycanda neft və qaz yataqlarının tapılmasında, aparılan geofiziki işlərin inkişafında, elmi-tədqiqatların aparılmasında Azərbaycan alimlərinin müstəsna xidmətləri olmuşdur.

Bu sahədə uzun müddət səmərəli və effektiv tədqiqat aparmış alimlərimizdən biri də Kərim Məmmədxan oğlu Kərimovdur.

Kərim müəllimin atası Zəngəzur mahalının Sisyan bölgəsindəndir. Hələ 1918-ci ildə erməni quldurlarının təcavüzü nəticəsində bu bölgənin əksər azərbaycanlı əhalisi öz dədə-baba yurdlarından qovu-

laraq Azərbaycana pənah gətirmiş, Kərim müəllimin valideynləri Qarabağ bölgəsində, digər qohumları isə respublikamızın ayrı-ayrı bölgələrində, xüsusilə də Naxçıvanda məskunlaşmışlar.

Kərim Məmmədxan oğlu 1933-cü il iyun ayının 5-də Qarabağın dilbər guşəsi olan Ağdam şəhərində doğulmuş və atasının işi ilə əlaqədar müxtəlif rayonların (Ağdam, Ağstafa, Ucar) orta məktəblərində oxumuşdur. 1952-ci ildə Bakıda orta məktəbi bitirdikdən sonra elə həmin ildə indiki Neft Akademiyasına daxil olmuş və 1957-ci ildə bu təhsil ocağını bitirərək - dağ mühəndisi-geofizikası ixtisasına yiyələnmişdir.

O, 1961-ci ildə əyani olaraq aspiranturaya daxil olmuş, 1964-cü ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək elmlər namizədi adını almışdır.

Onu da qeyd edim ki, yüksək təşkilatçılıq qabiliyyəti nəzərə alınmaqla bir müddət Bakı şəhər Komsomol Komitə-

sinin ikinci və birinci katibi vəzifələrini ləyaqətlə yerinə yetirsə də və partiya işində yüksək perspektiv sahələrə nail olsa da, elmə olan marağı Kərim müəllimi neft və qaz sənayesinin inkişafına bağlamış və bu sahədə böyük nailiyyətlərə imza atmışdır.

Kərim Kərimov 1975-ci ildə doktorluq dissertasiyasını Bakıda, 1978-ci ildə isə Moskvada (Moskva Dövlət Universitetində) müdafiə etmiş və geologiya-minerologiya elmləri doktoru adını almışdır.

Tanınmış alimə 1990-cı ildə Moskva Ali Attestasiya Komissiyası tərəfindən geofizika üzrə professor rütbəsi verilmişdir.

Elm sahəsindəki fəaliyyəti nəzərə alınmaqla ona 1991-ci ildə Azərbaycan dövləti tərəfindən Əməkdar elm və texnika xadimi adı verilmişdir.

Professor 1992-1996-cı illərdə ARDNŞ-i nəzdində yeni yaranmış geofizika üzrə baş idarənin rəisi vəzifəsində çalışmışdır.









AZƏRBAYCAN RESPUBLİKASI

STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT AGENTLİYİ

PATENT

İ 2005 0091

İxtiranın adı: Kollektor layların doyma xüsusiyyətinin təyini üsulu

Patentin sahibi: Geofizika və Mühəndis Geologiyası İB
AzərGeofizika ETİ
Azəriənəftmədənqeofizika
Kərimov Kərim Məmmədxan oğlu, Vəliyev Hümbət Ömər oğlu
Süleymanov Qəhrəman Süleyman oğlu, İsmayılov Ənvər Kamil oğlu
Bayramova Nazilə Oruc qızı, Hüseynova Dünyaxanım Abdul Ağa qızı
Qəhrəmanova Əfilə Mirzə qızı, Heydərova Xədicə İsmayıl qızı

Müəllif: Kərimov K.M., Vəliyev H.Ö., Süleymanov Q.S.,
İsmayılov Ə.K., Bayramova N.O.,
Hüseynova D.A., Qəhrəmanova Ə.M.,
Heydərova X.İ.

İddia sənədinin nömrəsi: 2003 0054

İlkinlik tarixi: 25.03.2003

Dövlət reyestrində qeyd olunub: 02.06.2005

Baş direktor [illegible]

Patent şöbəsinin müdiri M.M. Seyidov



ЕВРАЗИЙСКАЯ ПАТЕНТНАЯ ОРГАНИЗАЦИЯ
ЕВРАЗИЙСКОЕ ПАТЕНТНОЕ ВЕДОМСТВО

ЕВРАЗИЙСКИЙ ПАТЕНТ

№ 007086

Название изобретения:
«СПОСОБ ПРОГНОЗИРОВАНИЯ ЗЕМЛЕТРЯСЕНИЙ»

Патентовладелец (лица):

ПРОИЗВОДСТВЕННОЕ ОБЪЕДИНЕНИЕ ГЕОФИЗИКИ И ИНЖЕНЕРНОЙ ГЕОЛОГИИ ГОСУДАРСТВЕННОЙ НЕФТЯНОЙ КОМПАНИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (ГИКАР); НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ "АЗЕРГЕОФИЗИКА"; КЕРИМОВ КЕРИМ МАМЕДХАН ОГЛЫ; НОВРУЗОВ ЭТИБАР СЕЙФУЛЛА ОГЛЫ; ВЕЛИЕВ ГУМБАТ ОМАР ОГЛЫ; СУЛЕЙМАНОВ ГАХРАМАН СУЛЕЙМАН ОГЛЫ (AZ)

Изобретатель (и):

Керимов Керим Мамедхан оглы, Новрузов Этибар Сейфулла оглы, Велиев Гумбат Омар оглы, Сулейманов Гахраман Сулейман оглы (AZ)

Заявка №: 200500038

Приоритет изобретения: 31 октября 2003 г.

Дата подачи заявки: 22 сентября 2004 г.

Дата выдачи патента: 30 июня 2006 г.

ГРИГОРЬЕВ Александр Николаевич
Президент Евразийского патентного ведомства

Kərim Kərimov 1996-2005-ci illərdə Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyinin baş direktoru vəzifəsində ləyaqətlə işləmiş və Azərbaycan Neft və Qaz Potensialı adlı sanballı monoqrafiyalar yazmışdır. Onun neft və qaz sənayesinin inkişafında elmi araşdırmaları dünya alimlərini heyrətləndirmiş və böyük marağa səbəb olmuşdur.

Kərim Kərimov elmi əsaslarla sübut etmişdir ki, Azərbaycan böyük neft və qaz ehtiyatlarına malikdir. Gələcəkdə də yeni neft və qaz yataqları tapılmaqla ölkəmiz dünya dövlətləri arasında layiqli yer tutacaqdır.

Ulu öndər Heydər Əliyev görkəmli alim Kərim Kərimova inanırdı. "***Əsrin müqaviləsi***" neft kontraktının bağlanması Kərim Kərimovun elmi araşdırmalarını bir daha reallaşdırdı.

2006-cı ilin yanvar ayından yeni yaradılmış Geofizika və Geologiya İdarəsində baş müşavir vəzifəsində çalışan Kərim

Kərimov Azərbaycan və dünya elminə bir çox tövsiyələr vermişdir. Professorun Azərbaycanın neft sənayesinin inkişafında xüsusi rolu vardır.

Onun apardığı elmi işlərin nəticəsi imkan vermişdir ki, ona dünyada ilk dəfə olaraq Azərbaycanın neft ehtiyatının 7-8 milliard ton, qaz ehtiyatının isə 10 tirilion həcmində qiymətləndirsin.

Hələ 1992-1993-cü illərdə və hətta sonrakı bir neçə il ərzində Azərbaycanda (yəni ARDNŞ) ***Azəri-Çıraq-Günəşli*** yataqlarında hasil olunacaq neft ehtiyatlarının 500-550 million ton civarında olması söylənildiyi bir vaxtda professor Kərim Kərimov bu ehtiyatların əslində 730-750 million ton həcmində olmasını cəsarətlə sübut etmiş və bu nəticələri 1992-ci ilin sonunda mətbuatda inamla dərc etdirmişdir.

***Bakı-Tbilisi-Ceyhanın*** (BTS)-nın təməl daşı qoyulan zaman yalnız professor Kərim Kərimovun göstərdiyi rəqəmlər öz

əksini tapmışdır.

Professor Kərim Kərimov 550-dən artıq elmi əsərlərin - məqalələr, atlaslar, xəritələr və monoqrafiyaların müəllifidir. O, Azərbaycanda onlarla beynəlxalq əhəmiyyətli elmi konfrans, simpozium və seminarları təşkil etmiş və uğurla keçirmişdir. Eləcə də dünyanın müxtəlif dövlətlərində keçirilmiş simpoziumlarda iştirak etmiş və bəzilərində hətta bir neçə dəfə (İran, Misir və s.) sədrin müavini seçilmişdir.

Beynəlxalq mətbuatda onun bir çox elmi əsərləri dərc olunmuşdur və bu da alimin elmi ictimaiyyət arasında inam və hörmətinin bir amilidir.

1993-cü ildə AMEA-nın təşəbbüsü ilə Azərbaycan Milli Geofizika Komitəsi yaradıldı və professor Kərim Kərimov onun prezidenti seçildi. Elə həmin ildə ABŞ Kəşfiyyat Geofizika Cəmiyyətinin Azərbaycan bölməsi yaradıldı və onun da prezidenti professor Kərim Kərimov seçildi.

Sonrakı illərdə (1997-ci illər) o, Milli Geofizika Komitəsinin nəzdində yeni bir jurnal “Geophisics news Azerbaijan” təsis etmiş və artıq on ildən çox bu mətbuat orqanına rəhbərlik etmişdir.

Professor K.Kərimovun alim və təşkilatçılıq bacarığı hər zaman dövlət və geniş ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. O, dəfələrlə fəxri adlara, diplom və medallara layiq görülmüşdür. Mərkəzi hökumət (keçmiş SSRİ), nazirliklər, birliklər 1983-cü ildə SSRİ Sülh Komitəsi onu “Sülh uğrunda və nüvə müharibəsi əleyhinə” apardığı işlərinə görə müvafiq diplom və Qızıl medallarla təltif etmişdir.

2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Kərim Kərimova “Şöhrət” ordeni verilmişdir. Bu yüksək dövlət mükafatı görkəmli alimi daha da ruhlandırmış və sonsuz dərəcədə sevindirmişdir.


M. Kerimov


The 20th Century Award for Achievement
MCM·1900-2000·MM


INTERNATIONAL·BIOGRAPHICAL·CENTRE
CAMBRIDGE·ENGLAND
Kerim M. Kerimov
1900-2000
MM


2000
Millennium

Professor Kərim Kərimov bir neçə Beynəlxalq Elmi Akademiyaların həqiqi üzvü və 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Onun rəhbərliyi altında 1993-1995-ci illərdə Azərbaycanda uzunluğu 100-200 kilometr, 6-7 strukturdan ibarət yeni bir neft qazlı tektonik zona aşkar edilmiş və ona ümummilli liderimizin rəhbərliyə ikinci dəfə qayıtması münasibətilə “Qayıdış” adı verilmişdir.

Professorun elmi işləri bir neçə dəfə AMEA-nın ən yüksək nəticəsi siyahısında əksini tapmışdır.

15 ixtira və patentin müəllifi olan Kərim müəllimin iki ixtirası isə bəşəri əhəmiyyətli kəşf hesab olunur:

1) Zəlzələnin qısamüddətli proqnozlaşdırılması üsulu (Avrasiya Patentləşdirmə cəmiyyətinin 007087 saylı patenti);

2) Zəlzələnin proqnozlaşdırılması üsulu (Avrasiya Patentləşdirmə cəmiyyətinin 007086 saylı patenti).

Bu kəşflər öz mahiyyətinə görə elmin ən böyük nailiyyətlərindən hesab edilə bilər. Çünki onların (xüsusən də birinci kəşfin) geniş istifadəsi bəşəriyyəti zəlzələ bəlasından qurtarmış olar.

Bildiyimiz kimi, bəşəriyyət üçün ən təhlükəli təbii hadisələrdən biri zəlzələlərdir.

Kərim Kərimovun "Zəlzələ – öncədən proqnoz" adlı-sanballı monoqrafiyası dünya alimlərinin də böyük marağına səbəb olmuşdur.

Son 10 il ərzində Azərbaycan ərazilərində professor Kərim Kərimovun rəhbərliyi altında aparılmış elektromaqnit (MTZ) sahəsindəki müşahidələrin nəticəsində yeni bir effekt aşkar edilmişdir ki, hansı ki, qısa müddətli proqnozlarla çox uğurlara nail olmağın mümkünlüyü elmi əsaslara sübut olunmuşdur.

Təbii fəlakətlərin, o cümlədən zəlzələləri qısa müddətli proqnoz etmək imkanları bunu deməyə əsas verir ki, tədqiqatçı

alimin məhz bu kəşfi vaxtında Nobel mükafatına layiq görülməliydi. Yəqin ki, AMEA-sı bu məsələni diqqətdə saxlamaqla bəşəriyyətin xilası naminə ilk dəfə zəlzələnin öncədən proqnozunu elmi əsaslarla sübut etmiş həmyerlimiz Kərim Kərimovun məhz bu nailiyyəti xüsusilə qiymətləndiriləcəkdir.

AMEA-nın müxbir üzvü seçiləndən indiyə qədər görkəmli alim yorulmadan çalışmış və 18 sanballı monoqrafiyaları dörd dildə çap olunmuşdur.

Onun 4 dildə çap etdirdiyi “Azərbaycan neft və qaz potensialı” monoqrafiyaları ona dünya alimləri sırasında böyük nüfuz qazandırmışdır.

Müəlliflik şəhadətnamələrinin və patentlərin sayı: 15 ixtira və patent.

Əsas elmi nailiyyətləri haqqında qısa məlumatları da istəkli oxucularımızın nəzərinə çatdırırıq:

Kür çökəkliyində yer qabığının regional seysmik sərhədlərinin stratiqrafik

bölgüsü aparılmış və bu əsasda regionun geotektonik inkişaf tarixi yenidən nəzərdən keçirilmişdir.

Qafqazın və ona bitişik ərazilərin yer qabığının kompleks geoloji-geofiziki modeli tərtib edilmişdir.

Geofiziki tədqiqat məlumatları əsasında AYLT zonalarının proqnozlaşdırılması və öyrənilməsi üsulları və metodikası işlənib hazırlanmışdır.

Azərbaycanın ayrı-ayrı regionlarının neftlilik-qazlılığının potensial imkanları hesablanmış və yenidən qiymətləndirilmiş, neft-qaz üçün axtarış-kəşfiyyat işlərinin rasional yolları müəyyən edilmişdir.

Kadr hazırlığı:

elmlər namizədlərinin sayı:15

elmlər doktorlarının sayı: 3

Əsas elmi əsərlərin adları:

Cənub-Şərqi Qafqazın geofiziki sahələri və dərinlik quruluşu. "Zaqafqaziyanın yer qabığının geofiziki sahələri və quruluşu" kitabında (rus dilində), Moskva,

1985, “Nauka”, səh. 33- 43.

Cənubi Xəzər meqaçökəkliyinin dərinlik quruluşu və neftlilik-qazlılığı (rus dilində). Bakı, 1987, "Azərnəşr”, 304 səh.

“Dünya okeanı və daxili dənizlərin şelf zonalarının neftlilik-qazlılığının seysmik tədqiqatları”. Xəzər dənizində seysmik tədqiqatların 50 illiyinə həsr olunmuş elmi-texniki konfransın məruzələri (rus dilində), Bakı, 1991, səh. 30-31.

Kür-Cənubi Xəzər megaçökəkliyinin karbohidrogen resursları (rus dilində). ”Azərbaycan Neft Təsərrüfatları”, N7, Bakı, 1999, səh.1-11.

Cənubi Xəzər meqaçökəkliyinin neftlilik-qazlılığı (rus dilində). Bakı, 2001, ”Adiloğlu” nəşriyyatı, 317 səh.

Kərim Kərimovun yaradıcılığı çoxşaxəlidir. Elmi yaradıcılıqla yanaşı, Kərim Kərimov bədii yaradıcılıqla da məşğul olmuşdur. Azərbaycan Rəssamlar İttifaqının üzvü olan K.Kərimov istedadlı bir rəssamdır. Karikaturası rəssam kimi fəa-

liyyəti təqdirəlayiqdir. 1956-cı ildən başlayaraq əsasən satirik xarakterli ədalətsizlik, irqçilik, təcavüz və sair mövzularda minlərlə karikaturalar çəkmişdir.

1988-ci ildən bəri onun çəkdiyi siyasi plakat və karikaturalarının əsas mövzusu Ermənistanın Azərbaycana qarşı işğalçılığı və təcavüzü olmuşdur.



*Yasamal rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev, akademik Kərim Kərimov və Rauf İlyasoğlu (alimin 80 illik yubileyində)*

Son 20 il ərzində rəssam Qarabağ mövzusunda və onunla əlaqəli yaratdığı mindən çox əsəri, eləcə də 5 kitabı işıq üzü görmüşdür. Bu kitablarda rəssamın yağlı boyalarla çəkdiyi siyasi karikaturaları və plakatları toplanmışdır.

Rəssamın, "Soyqırım", "Azərbaycan və onun düşmənləri", "Terrorizm və qanlı ləpirlər", nəhayət, "Terrorizmə yox!" əsərlərinin bir hissəsi müxtəlif şəhərlərdə, o cümlədən Bakıda, Moskvada, Sankt-Peterburqda, İstanbulda və digər şəhərlərdə keçirilən sərgilərdə nümayiş etdirilmiş və böyük marağa səbəb olmuşdur. Terrorizmi, narkomaniyanı, erməni vandalizmini öz əsrlərinlə kəskin tənqid edən Kərim Kərimov siyasi plakatlar müəllifi kimi də şöhrət qazanmışdır.

Kərim Kərimovun karikaturalarından ibarət sərgisi Türkiyə tərəfindən yüksək qiymətləndirilmiş və 100 min manat mükafata layiq görülmüşdür. Kərim müəllim bu pulu Milli Ordumuza bağışlamaqla bir da-

ha insanpərvərlik nümunəsi göstərmişdir.

İki övlad atası olan Kərim Kərimov hazırda Yasamal rayon Ağsaqqallar Şurasının sədridir. Rayonun ictimai işlərində fəal iştirak edən Kərim Kərimovun 2014-cü ildə 80 illik yubileyi Yasamal rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyevin təşkilatçılığı ilə və rayon ictimaiyyətinin nümayəndələri ilə geniş qeyd edilmiş və bu sətirlərin müəllifi "Respublika" qəzetində tədbiri ətraflı işıqlandırmışdır. (Növbəti illərdə Bakıdakı Atatürk Mərkəzində və digər mədəniyyət ocaqlarında K.Kərimovun rəsm əsərlərindən ibarət sərgisi barədə geniş və ətraflı yazılar dərc olunmuşdur. Müəlliflər R.İlyasoğlu və Ə. Cabbarov)


ERMƏNİ
SOYQIRIMI
AVROPA
rəssam: Kərim Kərimov


www.kərimkərimov.az
SOYQIRIM
Siyasi karikaturalar
TERROR
SOYQIRIM!
TÜRKLƏR
AZƏRİLƏR
SOYQIRIM
Kərim Kərimov
Bakı - 2006




**Rəssam Kərim Kərimov**




Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, geologiya-minerologiya elmləri doktoru, professor, Azərbaycanın əməkdar elm və texnika xadimi, Beynəlxalq Şərq Akademiyasının həqiqi

üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü, Avropa Elmlər Akademiyasının həqiqi üzvü, Lütfizadə adına Beynəlxalq Akademiyanın həqiqi üzvü, ARDNŞ Geofizika və Geologiya İdarəsinin Elm üzrə Baş müşaviri, Azərbaycan Milli Geofizika Komitəsinin prezidenti, Amerika Kəşfiyyatçı Geofiziklər Assosiasiyasının (SEG) Azərbaycan bölməsinin prezidenti, "Azərbaycanda geofizika yenilikləri" jurnalının baş redaktoru, ADU-nun (indiki BDU) professoru, Azərbaycan Dövlət Neft Akademiyasının professoru, 500-dən artıq elmi əsərlərin, bir çox elmi monoqrafiyaların, 4000-dən çox siyasi karikatura və plakatların müəllifi, 1988-ci ildən başlayaraq bir neçə ölkələrdə "İlin adamı", "İlin ixtiraçısı" və "İlin alimi" seçilmiş, dövlətimiz tərəfindən bir çox medallarla, xüsusilə ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin imzası ilə "Şöhrət" ordeninə layiq görülmüş görkəmli alimə - ömrünün 83 yaşında

da yorulmadan çalışan Kərim Məmməd-xan oğlu Kərimova uzun ömür, cansağlığı və çoxşaxəli elmi və bədii yaradıcılığında yeni-yeni uğurlar arzulayırıq.

Ümid edirik ki, bu elm fədaisinin xidmətləri heç zaman unudulmayacaq və yeni-yeni mükafatlara layiq görüləcəkdir.

***Rauf İLYASOĞLU***
*"Həkəri qəzetinin*
*baş redaktoru,şair-publisist*



Kərim Kərimovun iş otağında

# Kərim Məmmədxan oğlu Kərimov



Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru, professor, Əməkdar elm və texnika xadimi, "Şöhrət" ordenli, Beynəlxalq Şərq Neft Akademiyasının həqiqi üzvü, Avropa Elmlər Akademiyasının həqiqi üzvü, Müasir Lütfüzadə adına Beynəlxalq Akademiyanın həqiqi

üzvü, ARDNŞ Geofizika və Geologiya İdarəsinin nəzdindəki Elmi-Tədqiqat İnstitutunda aparıcı işçisi.



# ЕГО РАЗРАБОТКИ В ОБЛАСТИ ПРОНОЗА ЗЕМЛЕТРЯСЕНИЙ ИМЕЮТ ОБЩЕЧЕЛОВЕЧЕСКОЕ ЗНАЧЕНИЕ

Профессор К.М.Керимов известен как видный ученый в области нефтяной и региональной геологии, геотектоники, геофизических методов разведки и исследований нефтяных и газовых месторождений. Разработанный им комплекс методов изучения термобарических и термодинамических характеристик осадочного покрова земной коры, прогноза, нефтегазоносности с большой эффективностью используется при изучении депрессионных структур басссейна Каспийского моря. Автор многочисленных статей, монографий и карт К.М.Керимов внёс значительный вклад в изучение недр Каспийского региона, их нефтегазонос-

ности и тектонической напряжённости. Его разработки в области прогноза землетрясений имеют общечеловеческое значение. Избрание профессора К.М.Керимова действительным членом НАНА явится признанием высокого значения его многолетней и исключительно продуктивной научной деятельности и важности полученных на этой основе практических результатов.

***Президент АМР РК***
***проф Г.БЕКЖАНОВ***

* * *

Для развития международного сотрудничества в области исследований по современной геодинамике, геофизике и сейсмологии целесообразно организовать приезда профессора Керимова К.М. в Кыргыстан для совместного обсуждения достижений ученых Азербайджана, Кыргызстана и России. В связи с этим приглашаем профессора

К.М.Керимова посетить Научную станцию РАН в г. Бишкек и Кыргызско-Россиский Международный научно-исследовательский центр-геодинамический полигон (МНИЦ-ГП) в период 15-30 апреля. Для удобства г.Керимова точное время его командировки может быть согласовано дополнительно. Сообщаем также о намерении обсудить с профессором Керимовым перспективы разработки совместного проекта, направленного на предсказание землетрясений в Кавказе и в Центральной Азии.

***П.М.БОТОМОЛОВ,***
***Заместитель директора НС РАН***
***по научной работе***

# Kərim Kərimovun rəsmləri “Böyük Ermənistan” xülyası ilə yaşayan erməni millətçilərinin, terror təşkilatlarının himayədarlarını ifşa edir

*“Terrorizm böyük bəladır. Azərbaycan terrorizmdən əziyyət çəkən ölkədir. Biz yaxşı bilirik ki, bu nə deməkdir. Terrorizmlə mübarizə aparmaq üçün bütün qüvvələr, bütün ölkələr birləşməli və bütün dünyada terror aktlarına qarşı mübarizə aparılmalıdır”.*

***İLHAM ƏLIYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Erməni millətçilərinin xalqımıza qarşı yönəldilmiş işğalçılıq siyasəti Sovet dövründə daha geniş xarakter aldı. Kərim Kərimov böyük ustalıqla qələmə aldığı bir çox tablolarında azərbaycanlıların öz yurd-yuvalarından deportasiya edilməsindən da-

nışır. Bu gün Ermənistanda bir nəfər də azərbaycanlı yaşamır. Hansı ki, XIX-cu əsrin əvvəllərində İrəvanda əhalinin 90%-dən də çoxunu müsəlmanlar təşkil edirdi.

Bakı isə dünyada beynəlmiləl şəhər kimi tanınırdı. Kərim Kərimov bütün bu faktları dərindən araşdırmış, azərbaycanlıların doğma torpaqlarından deportasiyasının mahiyyətini, ağrılı nəticələrini tablolara köçürmüşdür.



Kərim Kərimovun əsərlərində erməni terrorizminə böyük təcrübəyə, güclü maliyyəyə və hərbi potensiala malik olan yüksək təşkilatlanmış qüvvə kimi baxılır. Bu, həqiqətən də belədir.




rəssam: Kərim Kərimov

“Fal” üstündə yatan terrorçu

XIX-XX əsrlərdə meydana gəlmiş "Armenikan", "Qnçak" və "Daşnaksütyun" və digər erməni partiyaları siyasi mübarizə vasitəsi kimi terroru seçdilər.

Rəssamın əsərlərindən bir daha sübut olunur ki, erməni terrorizmi XIX əsrdə yaranmış və meydana gəldiyi dövrdən başlayaraq beynəlxalq və mütəşəkkil xarakter almış, dünyanın bir çox ölkələrində terrorizmin inkişafı üçün çoxsaylı yeniliklər gətirmiş və belə təşkilatlar üçün bir növ "məktəb" olmuş, törətdiyi hadisələrin xüsusi zülmkarlıqla həyata keçirilməsi ilə fərqlənmişdir.

Erməni terrorizminin qanlı təcrübəsi mövcud olduğu bütün dövrlərdə ictimai rəyə təsir edən güclü təbliğat və mütəşəkkil psixi təzyiqlə zəngin olmuşdur. Nəticədə uzun müddət ərzində dünyada bir çox ictimai xadimlər və siyasətçilər erməni terror təşkilatlarını milli-azadlıq hərəkatının tərkib hissəsi kimi qəbıl etmiş və etməkdədirlər. Amma faktlar başqa şey deyir.

Müəllifin kütləvi surətdə insanların qırılması, talanlar, yaşayış məntəqələrinin darmadağın edilməsi, dinc vətəndaşlara, xüsusilə uşaqlara, qadınlara etnik mənsubiyyətinə gorə zülm edilməsi, tarixi, mədəni abidələrin və s. dağıdılması, "Böyük Ermənistan", "çox əziyyətlər görmüş erməni xalqı" barədə tabloları erməni terrorizminin ideologiyası, onun prioritetləri barədə tam fikir yürütməyə əsas verir.

XX əsrin 70-ci illərinin əvvəllərində Fransanın, İngiltərənin, ABŞ-ın və Yaxın Şərq ölkələrinin erməni təşkilatları dünya ictimaiyyətinin diqqətini "erməni xalqının problemi"nə cəlb etmək məqsədilə terror aktlarının həyata keçirilməsi metodundan geniş istifadə etməyi qərara almışdılar. Onu göstərmək kifayətdir ki, 1972-1991-ci illər ərzində erməni terror qruplaşmaları tərəfindən türk diplomatları, siyasətçiləri və biznesmenlərinə qarşı 300-dən artıq terror aktı törədilmişdir.




rəssam: Kərim Kərimov

Ölümsəpənlər

Məşhur ASALA terror təşkilatı da məhz bu dövrdə yaradılmışdır. Bu terror təşkilatının başlıca məqsədi Türkiyənin cənubunu, İranın şimal hissəsini, indiki Ermənis-

tanın ərazisini, Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan torpaqlarını birləşdirərək "Böyük Ermənistan" yaratmaq və dünya ictimaiyyəti tərəfindən uydurma "erməni genosidi"nin qəbul edilməsidir.

Kərim Kərimovun rəsmləri "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni millətçilərinin, terror təşkilatlarının himayədarlarını ifşa edir, beynəlxalq ictimaiyyəti beynəlxalq hüquq normalarını, dinc yanaşı yaşamaq qaydalarını kobud, həyasızcasına pozan erməni millətçilərinə qarşı mübarizəyə səsləyir. Tam aydın olur ki, hədsiz amansızlığı ilə fərqlənən və etnik təmizləmələr, kütləvi talanlar və çoxlu insan tələfatı ilə müşahidə olunan erməni terrorizmini Ermənistan rəhbərləri dövlət səviyyəsində müdafiə edir.

Şarl Aznavurun dünyanın etnik ermənilərinə çağırışı kimi sözlərinə diqqət edin: "əgər sən ermənisənsə, Ermənistana kömək et".




rəssam: Kərim Kərimov

Soyqırmın siyasəti

İndi Ermənistan həm bilavasitə erməni fond və cəmiyyətlərindən, həm də lobbi sistemi ilə aldığı maliyyə dəstəyi ilə erməni terror qruplaşmalarının sponsoru kimi çıxış edir, onların fəaliyyətini planlaşdırır.

Kərim Kərimov əsərlərində bəşəriyyət üçün ən böyük bəla olan faşizmi, onun mahiyyətini açmağa ciddi cəhd edir və haqlı olaraq erməni terrorizminin nə qədər təhlükəli olduğunu bildirir. Onun bu mövzuya həsr etdiyi əsərlərinə həyəcansız baxmaq mümkün deyildir.

Müəllif erməni faşizminin son dərəcə təhlükəli bir siyasət olduğunu bir daha xatırlatmaqla bütün sülhsevər qüvvələri daha sıx birləşməyə çağırır və göstərir ki, beynəlxalq terrorizmin iqtisadi-maliyyə bazasını təşkil edən mənbələr erməni terrorizminin də mənbələridir.

Konkret faktlar sübut edir ki, son illərdə erməni terrorizminin maliyyə bazası daha da möhkəmlənmişdir ki, bu da ölkədə narkobiznes faktoruna geniş yer veril-

məsi ilə bağlıdır. Qeyd etmək lazımdır ki, Ermənistanda narkobiznes epizodik xarakter daşımır, o qlobal miqyas almış və rəsmi orqanlar tərəfindən nəzarət edilir. Bu orqanlar qeyri-leqal narkobiznesin inkişafı üçün əlverişli şərait yaratmışlar.




rəssam: Kərim Kərimov

Araqızışdıranlar

Bu gün Ermənistanda tərkibində narkotik maddələr olan bitkilərin becərilməsi üçün plantasiyalar salınmışdır.

Respublikamızın erməni qəsbkarları tərəfindən işğal olunmuş ərazilərində də narkotik bitkilərin yetişdirilməsinə xüsusi diqqət yetirirlər.

Müəllifin yaratdığı əsərlərdə erməni terrorizminin dünyanın digər ölkələrindəki terror qruplaşmaları ilə birbaşa əlaqədə olduğu əks olunur. Bu, həqiqətən belədir. Faktlar sübut etmişdir ki, Azərbaycanın dinc əhalisinə qarşı qanlı aksiyaların həyata keçirilməsində Ermənistan silahlı qüvvələri və Dağlıq Qarabağın erməni separatçıları ilə yanaşı başqa ölkələrdən, o cümlədən Yaxın Şərqdən gəlmiş kürd və ərəb terror qruplaşmaları iştirak etmişlər.

Müəllifin tabloları bir daha sübut edir ki, Ermənistanın dövlət terrorizmi siyasəti bu gün həm regional, həm də beynəlxalq sabitliyə real təhlükədir. Bunu sübut etmək üçün alim-rəssam son onilliklər ərzin-

də müasir terrorizmin qurbanlarının, o cümlədən Azərbaycanın dinc əhalisinə qarşı yönəldilmiş dövlət terrorizmi siyasətinin praktiki reallaşmasını xarakterizə edən faktlar əsasında dərin təsir bağışlayan əsərlər yaradır.

Ermənistan respublikamızın bütün bu kimi nailiyyətlərinə, Azərbaycanın beynəlxalq layihə və proqramlarda iştirakına çox qısqanclıqla yanaşır və dövlətimizin bu istiqamətdəki fəaliyyətinə mane olmaq üçün bütün iyrənc vasitələrə əl atır. Kərim Kərimovun Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin çəkilişi, Xəzərin zəngin resurslarından istifadə olunması, qədim İpəkyolunun bərpası ilə bağlı yaratdığı tablolarda yuxarıda dediklərimiz öz əksini tapmışdır. Kərim Kərimovun əsərlərindən bu da birmənalı şəkildə aydın olur ki, heç bir maneə, heç bir qüvvə Azərbaycanın ədalətli mübarizəsinin qarşısını ala bilməz. Bu gün Azərbaycan dövləti dinamik inkişaf edir, onun beynəlxalq aləmdə imici artır, əsası

ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilir. Bütünlükdə cəmiyyətdə taleyüklü problemlər ətrafında əldə olunmuş konsensus respublikamızın uğurlu gələcəyinin təminatı kimi çıxış edir ki, bu da Azərbaycana qarşı əks mövqedə duranlara, erməni terrorizminə qarşı ən güclü zərbə vasitələridir.

Mən görkəmli neftçi–alim, professional fırça ustası Kərim Kərimova xoş günlər arzulayıram.

***Ziyad SƏMƏDZADƏ,***
***akademik***



# “TERRORİZM VƏ QANLI LƏPİRLƏR” ALBOM-KİTABINA RƏY

Terrorizm zəmanəmizin ən dəhşətli faciələrindən birinə çevrilmişdir. Belə murdar və bəzən də ağlasığmaz hadisələrin nəticəsində indiyə qədər bir çox ölkələrdə kəndlər, şəhərlər, tarixi abidələr dağıdılır, məhv edilir, bəzən də xarabalığa çevrilir, qan tökülür. Bunun ən çox acısını çəkən öikələrdən biri də Azərbaycandır. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində 20%-dən artıq torpağımız işğal olunmuş, yüzlərlə kənd, şəhər darmadağın edilmiş, xalqımızın var-dövləti talan olunmuşdur, 1 milyondan artıq soydaşlarımız qaçqın və köçkün vəziyyətinə düşmüşlər. Günahsız insanların qanı töküllmüş, minlərlə insan şəhid olmuşdur. Xalqımıza qarşı əsl soyqırım siyasəti apa-

rılmış və həyata keçirilmişdir. Bu, tarixdə görünməyən ədalətsizlik və Ermənistan dövləti tərəfindən Azərbaycana qarşı aparılan açıq qatı terrorçuluq və bəzi dövlətlər tərəfindən isə buna biganəlik və riyakarlıqla həyata keçirilməkdə olan ikili standart siyasətidir.

Son illərdə terrorçuluq dünyada demək olar ki, açıq faşizm şəklini almış və bu da müasir dünyamızı olum və ya ölüm sualı qarşısında qoymuşdur. Belə hesab edirəm ki, bu deyilən dəhşətlərə qarşı səsini ucaltmaq və mübarizə aparmaq hər bir insanın müqəddəs borcu olmalıdır. Elə bu baxımdan alim-rəssam Kərim Kərimovun "Terrorizm və qanlı ləpirlər" monoqrafik-rəsm albomundakı əsərlər öz mahiyyəti və aktuallığına görə ən vacib əsərlər toplusundan biri sayılmalıdır. 155 karikatura və siyasi plakatdan ibarət olan bu çox dəyərli rəsm toplusu Azərbaycana qarşı Ermə-

nistanın təcavüzkarlığını ifşa etməklə bərabər, aparılan ikiüzlü siyasətin əslində bütün dünyaya təhlükə olmasını göstərir. Çap olunmuş əsərlərində Kərim müəllim bütün insanları ədalətə xidmət etməyə və terrorçuluğa qarşı qətiyyətlə çıxışa, dönməz mübarizəyə çağırır. Belə hesab edirəm ki, Azərbaycanın rəssamlıq aləmində bu kitab siyasət baxımından ən qiymətli bir gerçəklikdir.

Hər bir rəsmdə müəllifin nəinki yüksək siyasi bilik sahibi olması, eyni zamanda doğma xalqına, onun problemlərinə ürəkdən bağlılığı, düşmənlərə qarşı isə barışmaz mövqe tutması açıq-açığına görünür.

Bir sözlə, rəsm albomu həm siyasi, həm də rəssamlıq baxımından dedikcə zəngindir və dövlətimizin, başda hörmətli Prezidentimiz İlham Əliyevin apardığı və dünya tərəfindən tam dəstəklənən siyasətinə xidmət edir.

Kərim Kərimovun "Terrorizm və qanlı ləpirlər" rəsm albomu dünyanı terrorçuluğa və separatizmə qarşı qəti mübarizəyə çağırmaqla yanaşı, Azərbaycanın bu sahədə apardığı fəal işinin də aynasıdır.



***Nizami CƏFƏROV,***

***professor AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, millət vəkili.***

# "TERRORISM AND BLOODY FOOTSTEPS" CARTOON ALBUM

Kerim Mammadkhan oglu Kerimov is an outstanding personality gifted by wonderful features of keen researcher. Kerim Kerimov is a famous scientist in the realm of geophysics and geology, corresponding member of National Academy of Sciences, corresponding member of several foreign Academies and Research centers who authored fundamental monographs. He made a tremendous contribution into progress of geoscience and improvement of prediction technologies in hydrocarbon exploration.

This is just one side of his multi-faceted character. Since his childhood he had surprised his peers and adults by his fabulous pictures, and his in-depth comprehension of current events throughout the world. He never could bypass somebody's trouble and distress

and always consider himself to lend a helping hand to indigent people. His drawings reflect his feelings to native people's needs, and heartily love to his country. He penciled and still draws many political placards in which artist-satirist straight away and decisively unmasks routine stuff and nonsense that hampers improving people's life. Recent surge of terrorism and national-chauvinism that has swept all over the world, also was nor been bypassed by professor Kerim Kerimov's perception. His cartoon imply that he take hard every single act of terrorism, separatism and national-chauvinism. Azerbaijan people take it to heart and see his point because Armenian terrorism does harm, injures and a-'lot of suffering in most disgusting way to innocent and peaceful people.

Kerim Kerimov keeps in mind Great Heydar Alivev's utterance that striving for peace is a sacred duty and inalienable

component of every sensible person, his concrete contribution into humanity action sheared by all mankind.

It is precisely this fact that explains the sense of that great work of art in politics cartoon album "Terrorism and bloody footsteps".

Dv.ring the past 15 years Kerim Kerimov created tremendous cartoon gallery about armenian terrorists and national-chauvinist. That is actually comes from the bottom of the patriot-citizen heart, it is his ever lasting will to inform international community the sense of armenian terrorism and its dangerous consequences for all mankind. Cartoons shown in album clearly reflect the sense of Armenian bloody terrorism. These cartoons demonstrate that Armenian terrorism is typified by severe cruelty accompanied by ethnic cleaning, massacre, and loss of thousands human

lives. All these are horrifying and very devastating menace to mankind

Kerim Kerimov, scientist and cartoonist appeals to all those who cares about our planet's future, ana a world leaders to declare uncompromising combat against international terrorism and anhenian terrorism.



# DÜNYA ŞÖHRƏTLI ALIM, KAMIL ŞƏXSIYYƏT



Elm yollarında inamla, ardıcıl irəliləyən istedadlı və zəhmətkeş geoloq axtarışları və tapıntıları ilə Azərbaycan neft geologiyasında layiqli mövqe qazanmışdır. Azərbaycan dövlət müstəqilliyi əldə edib, əsas təbii sərvəti olan neft-qaza sahiblik etməyə başlayan ilk günlərdən Kərim Kərimov ulu öndər Heydər Əliyevin işləyib

hazırladığı yeni neft strategiyasının elmi-nəzəri cəhətdən, geoloji yöndən əsaslandırılmasına rəhbərlik etdiyi Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyini tam səfərbər etmişdir. O illərdə ARDNŞ-ın birinci vitse-prezidenti, millət vəkili olan İlham Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən müstəqil neft siyasətinin qazandığı tarixi uğurlarda Kərim müəllimin istər bir alim, istərsə də təşkilatçı kimi mühüm rolu olmuşdur.

Respublika ictimaiyyəti dünya şöhrətli neft geoloqunu həm də illərdən bəri istedadlı karikaturaçı rəssam kimi tanıyır.

...Tale bir əsrdə iki dəfə Kərimovlar ailəsini erməni vəhşiliyi və qəsbkarlığı ilə üzləşdirib. Babası Kərim Zəngəzurun Şəki obasının diribaş, millət təəssübü çəkən kişilərindən olub. Erməni quldurları onun iki qardaşını gözləri qabağında qılıncdan keçirib, ocaqlarını söndürüb, obalarını yandırıb, nəslini didərgin salıb. Atası Məmmədxan kişi Fizuli rayonunda məskunlaşıb,

burada təhsil alıb. Anası Afərim xala ilə də burada tanış olub, ailə qurub.

Məmmədxan kişi milis sistemindəki işi ilə əlaqədar ömrünün sonuna qədər Ağdamda yaşayıb. Ailənin üç oğlu və dörd qızı da burada doğulub, boya-başa çatıb. Qardaşı Hüsü, bacıları Minayə, Səriyyə, Səfirə, Ofeliya ali tibb təhsili alaraq, öz sahələrində tanınmış mütəxəssis kimi ad-san qazanıblar. Qardaşı Rafiqsə istedadlı rəssamdır. Kərim də 1933-cü ildə Ağdamda dünyaya göz açıb. Ailənin doğma ocağı, ata-ananın məzarı erməni işğalında olan Ağdamda qalıb. Vaxtilə Sisyandakı dədə-baba ocağından perik düşən Kərimovlar erməni namərdliyinin, taleyin acılarının acığına artıb çoxalıblar, həyatda yüksək mövqe qazanıblar. Ailənin hər bir üzvünün qəti inamı belədir ki, bu dəfəki erməni qəsdlərindən, qətl-qarətlərindən də xalqımız qalib çıxacaq. Kərimovların Zəngəzurdakı və Qarabağdakı doğma obaları yenidən soydaşlarımızın nəfəsilə qızınacaq,

əbədi yurd yeri kimi cücərəcək, yüksələcək.

K.Kərimov 1952-1957-ci illərdə Azərbaycan Sənaye İnstitutunda oxumuşdur. Hələ tələbə ikən elmi-tədqiqat işlərinə meyl göstərmişdir.

Ali məktəbdəki uğurları, təşkilatçılıq qabiliyyəti 1957-ci ildə diplom alan neftçi geoloqu təbii axarla respublika gənclər təşkilatında məsul vəzifələrə aparıb çıxardı. Bu sistemdə üç il çalışandan sonra daha da irəli getmək, partiya-sovet orqanlarında rəhbər vəzifələrə yüksəlmək perspektivi real olsa da, Kərim onu tanıyanların gözlədiklərinin əksinə olaraq, sevib-seçdiyi ixtisas sahəsinə - neft geologiyasına qayıtdı. Bir il Elmlər Akademiyasının Dərin Neft-Qaz Yataqları Problemləri İnistitunda baş mühəndis işlədi. 1961-64-cü illərdə Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutunun aspiranturasını bitirdi, dissertsiya müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi

adını aldı.

Alim-geoloq kimi Kərim Kərimov taleyini birdəfəlik neft geologiyasına bağladı, illər keçdikcə yeni neft-qaz yataqlarının geofiziki üsullarla kəşfi ilə bağlı 1965-92-ci illərdə Azərbaycan Geofizika Elmi-Tədqiqat İnstitutunda baş elmi işçi, bölmə, laboratoriya və şöbə müdiri vəzifələrində



çalışdı. 1975-ci ildə doktorluq dissertasiyasını müdafiə etdi.

Azərbaycanın dövlət müstəqilliyinin ilk vaxtlarında - 1992-ci ilin oktyabrında Dövlət Neft Şirkətinin tərkibində Baş

Geofizik İdarəsi yarananda kollektivin ümumi etimadı ilə rəis vəzifəsinə Kərim Kərimov seçildi. İdarə ulu öndər Heydər Əliyevin yeni neft strateqiyasının tələbləri ilə bağlı 1994-cü ildə Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyinə çevriləndə Kərim Kərimov novator alim və bacarıqlı təşkilatçı kimi özünü doğrultduğuna görə bu məsul quruma baş direktor təyin olundu.

Qısa müddətdə bu bilikli, duyumlu və cəsarətli geoloq alimin rəhbərliyi ilə "Əsrin müqaviləsi" və digər neft müqavilələrinin əhatə etdiyi yataqların hüdudları, ehtiyatları işlənib hazırlandı. Kərim Kərimovun bir-birinin ardınca elan etdiyi rəqəmlərin miqyası nəinki kənardakı əleyhdarlarımızın qısqanclığına səbəb oldu, hətta daxildə də bəzilərində inamsızlıqla qarşılandı.

Kərim qəti bir inamla bildirdi və elmi-nəzəri cəhətdən sübuta yetirdi ki, yataqların neft ehtiyatı səkkiz milyard ton-

dan, qazın həcmi isə on beş triliyon kubmetrdən az ola bilməz. O, bu qənaətində təkcə rəhbərlik etdiyi kollektivin proqnozlarına deyil, həm də uzun illərdən bəri şəxsən apardığı elmi işlərin nəticələrinə arxalanırdı. Ümummilli lider Heydər Əliyevin dahi bir uzaqgörənliklə, müxtəlif təzyiqləri dəf edərək imzaladığı neft müqavilələrinin ilk uğurları Kərim Kərimovun haqlı olduğunu təsdiqlədi.

Bədxahlarımız Azərbaycanı dünya birliyinə bağlayacaq yeni neft-qaz kəmərlərinin çəkilməsinin qarşısına kötüklər atanda da, Kərim Kərimov susmadı. O, Azərbaycanın bu kəmərləri dolduracaq, hətta ondan da artıq neft ehtiyatları olduğunu ölkəmizdə və xaricdə keçirilən elmi məclislərdə dönə-dönə bəyan etdi.

Kərim müəllimin o vaxtı bəyanatlarından birindəki mülahizələri indi də həyəcansız oxumaq olmur: "*Son zamanlar müəyyən qüvvələr ölkəmizdə və ondan kənarlarda intensiv olaraq şayiə yayırlar ki, gu-*

*ya, Azərbaycanda, o cümlədən onun Xəzər bölməsində heç nəzərdə tutulan neft ehtiyatı yoxdur. Belə bir hay-küy, şübhəsiz ki, mənfur bir məqsədə xidmət edir. Neft sənayemizə sərmayə qoymaq istəyənləri faktiki olaraq belə fikirdən çəkinməyə çağırırlar. Bunların hamısına obyektiv cavab verməyi mən özümə vətəndaş və alim borcu bilirəm".*

Kərim Kərimov artıq neçə illərdir ki, elmlər doktoru və professordur. Milli Elmlər Akademiyasına müxbir üzvü, Şərq Neft Akademiyasına, Avropa Elmlər Akademiyasına, Beynəlxalq Ekoenergetika Akedemiyasına, Lütvi-Zadə adına Akademiyaya həqiqi üzv seçilib. Müxtəlif ölkələrin neft və geofizika cəmiyyətlərinin üzvüdür. Amerika Bioqrafiya İnstitutu və Kembric Universtiteti həmyerlimizi dəfələrlə "İlin adamı" seçmiş, medallarla təltif etmişdir. O, Azərbaycan Milli Geofizika Komitəsinin prezidenti, geofizika yenilikləri jurnalının yaradıcısı, bir sıra qəzet-jur-

nalların redaksiya heyətinin üzvüdür.

Öz sahəsində yeni istiqamət açan alim 15 elmlər namizədi və 3 elmlər doktoru yetişdirmişdir. O, neft geologiyası sahəsində 500-dən çox elmi əsərin, 18 monoqrafiyanın, 20 müəlliflik şəhadətnaməsi və patentinin (ikisi beynəlxalq olmaqla) müəllifidir. Yusif Məmmədəliyev adına və Sülhü Müdafiə Komitəsinin mükafatlarını alıb, çoxsaylı təltifləri var.





Керим М. Керимов

ГЛУБИННОЕ СТРОЕНИЕ И НЕФТЕГАЗОНОСНОСТЬ ДЕПРЕССИОННЫХ ЗОН АЗЕРБАЙДЖАНА И ЮЖНОГО КАСПИЯ

БАКУ-2009

Bunların içərisində Prezident Heydər Əliyevin fərmanı ilə layiq görüldüyü müstəqil Azərbaycan Respublikasının “Şöhrət” ordenini ayrıca qeyd etmək lazımdır. Kərim Kərimovun elmi xasiyyətnaməsi də olduqca zəngindir. Bu barədə arayışdan sətirləri oxucuların nəzərinə çatdırırıq.

Kərim Məmmədxan oğlu dünya geoloqları və geofizikləri arasında tanınmış alimdir. O, neft geologiyasının, regional geologiyanın, geotektonikanın, neft və qaz yataqlarının geofiziki üsullarla axtarışı problemlərinin geniş diapozonlu müxtəlif məsələləri üzrə elmi-tədqiqat işləri aparmışdır. Alim Yer Litosverinin quruluşu və inkşafının, Yer qabığının termodinamik və termobarik vəziyyətinin öyrənilməsi üçün geofiziki informasiyanın tətbiqi üsulları kompleksini işləyib hazırlamışdır.

Geoloq alim 1974-cü ildən etibarən böyük dərinliklərdə yatan çöküntülərin quruluş və neftilik-qazlılığının geniş miqyaslı və məqsədyönlü geoloji-geofiziki tədqi-

qatları ilə məşğuldur. Onun elmi işlərində anomal yüksək lay təzyiqinin və temperaturun təbiəti barədəki təsəvvürlər yeni baxımdan nəzərdən keçirilmiş və inkişaf etdirilmiş, təzyiq və temperaturun çöküntü qatının müxtəlif hissələrində paylanması və yerləşməsi qanunauyğunluqları və onların neft axtarışı işlərində istifadə olunması imkanları tədqiq olunmuşdur.

Professor Kərim Kərimov neft geologiyası elmi tarixində də ilk dəfə olaraq qumlu-gilli süxurların elektrik xüsusiyyətlərilə əlaqədar iki geoloji effekt müəyyən etmişdir.

Hər iki effekt neft-qaz axtarışı və kəşviyyatı işləri üçün böyük elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edir. O, Azərbaycanın, keçmiş SSRİ-nin ona bitişik cənub ərazilərinin dərinlik geoloji quruluşunun kompleks geoloji-geofiziki tədqiqat məlumatları əsasında öyrənilməsi üzrə böyük iş aparmışdır.

Zaqafqaziyanın depressiya zonaları

və onlara bitişik ərazilər üzrə olan geniş geoloji-geofiziki materialların birgə baxılması, elmi analizi və yenidən interpretasiyası əsasında Yer qabığındakı seysmik sərhədlərin yeni stratifikasiyasını vermişdir. Bu sahədə alimin xüsusi xidmətlərindən biri çökmə süxurlar qatının aşağılarında müşahidə edilən seysmik sərhədinin ilk dəfə olaraq stratiqrafiq vəziyyətinin müəyyən edilməsi və bu sərhədin Yura və Təbaşir çöküntülərinin kontakt səthinə aid edilməsidir.

Kərim Kərimovun zəlzələlərin baş verməsinin qabaqcadan öyrənilməsinə dair yeni metodikası seysmologiya elmində yenilik kimi dəyərləndirilmişdir.

Kərim müəllim hazırda ARDNŞ-ın Geofizika və Geologiya İdarəsində elmi işlər üzrə baş müşavir işləyir. O, Azərbaycanın neft-qaz ehtiyatlarının yenidən qiymətləndirilməsi və neft strategiyasının uğurlarının geniş təbliği ilə bağlı fəaliyyətini uğurla davam etdirir.

Professor Kərim Kərimovun “Azərbaycanın neft-qaz potensialı” adlı fundamental monoqrafiyası bu günlərdə 8 dildə (Azərbaycan, türk, rus, ingilis, alman, fransız, ərəb və fars) işıq üzü görəcəkdir.



***Ələsgər CABBAROV***
***jurnalist, 2015-ci il***

## *Professor Kərim Kərimovun Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvlüyünə seçildiyi vaxtdan (2001-ci il) geologiya elminin inkişafı yolunda gördüyü islər:*

**Elmi əsərlər:**

1. 3 (üç) monoqrafiya dərc etmiş (2001, 2003 və 2005-ci illər);

2. 78 elmi məqalələri müxtəlif jurnallarda dərc olunmuşdur;

3. 2 xəritə tərtib etmiş və çapdan çıxarmışdır (1 - Azərbaycanın neftli-qazlı ərazilərinin rayonlaşdırma xəritəsi (M - 1:500 000), 2 - Azərbaycanın neft-qaz-geoloji rayonlaşdırma və neftlilik qazlılıq perspektivi (M - 1:500 000);

4. 6 (altı) patent (o cümlədən 2 (iki) Beynəlxalq patent) almışdır;

5. Bir neçə mövzuya elmi rəhbərlik etmiş və müvafiq şuralarda yüksək qiymətə layiq görülmüşdür;

6. Redaktorluğu ilə 1997-ci ildən nəşr

olunan "Azərbaycan geofızika yenilikləri" jurnalında 2001-ci ildən hal-hazıradək yer elminə aid 250-dən artıq elmi məqalə dərc edilmişdir. Həmin jurnal son 5 ildə Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilmiş və respublikamızda yer elmi sahəsində ixtisaslı kadrların yetişməsində əhəmiyyətli rol oynamışdır;



**Kərim Kərimovun yeni ixtirası**

составил К. Керимов

| Глубины в км. | 1 | 2 | 3 | 4 | 5 | 5.5 | 6 | 6.5 |
|---|---|---|---|---|---|---|---|---|
| Бабазанан №43,45 | 1.8 | 2,7<br>2,0 | 2,8 | 1,8<br>2,3 | 1.5 | ** | | |
| Кюрсангя №79<br>Кюрсангя №71<br>Кюрсангя №100 | 1,6<br>1,7<br>1,6 | 1,7<br>1,6<br>1,9 | 1,8<br>2,0<br>2,5-3,6 | 1,7<br>2,2<br>3,8 | 2.1<br>40-43 | 4.1 | 6.0 | 6.5 |
| Сарханбейли №4<br>Каламадин №7 | 0,9 | 1,3 | 1,2 | 1,3 | 1.7-1.8<br>2.3 | | | |
| Калмас № 55 | 2,6 | 2,1 | | | | | | |
| Булла – море № 60<br>Булла – море № 72 | 3,0<br>3,8 | 2,5(1000)<br>1,9 | 2,7<br>2,5-3,6 | 3,6<br>3,8 | 6.0<br>4.0-4.3 | 98<br>93 | 9.2 | |
| Самедова № 1 | 3,1 | 1,9 | 2,5-3,6 | 3,8-4,0 | 4.3 | 9,0-7.0 | 20 | 9.5-10 |
| Хамамдаг-дениз | 1,6 | 2-2,3 | 2,4-2,6<br>2,4 | 2,7-2,5<br>2,3-4500 | 2.4 | | | |
| Булла – море | 2,4 | | 2,8 | 4,0-5,0 | 4.3-4.9<br>5500-4.1 | | | |
| Бахар № 78 | 1,65 | 1,4 | 2,4-3,8 | 5,5 | 3.5-2.2 | 5.5 | | |
| 8-марта № 584 | 1,8<br>1500-2,7 | 1,6<br>2500<br>2,1 | 3,5<br>3500-<br>3,6 | 4,0<br>4500<br>4,4 | 6.0 | 9.8 | 4.4 | |
| Зафар-Машал | 800-1,3<br>2,0 | | 1,3 | 1,7<br>4500 | 2.2 | 6.5 | 7.0 | 7.2 |
| Булла № 62 | 1,9 | (1500)<br>2,8<br>1,8-2,3 | 1,8-2,0<br>3,6 | 4.1<br>3.6 | 4.6-4500<br>5.0 | 7.0 | >20<br>6200<br>-9.5 | |
| Булла – море №50 | 1,7<br>1500-2,8 | 1,0-2,0<br>1,8-1,9 | 2500-<br>2,5 | 2.5<br>4500-3.0 | 7.υ | 7.5 | | |
| Булла – море № 72 | 500-1,8<br>3,5-4,0 | | | | | | | |
| Бахар № 22 | 1,4 | 1,6<br>2500-3,1 | 3,5<br>3500-<br>3,9 | 7.8<br>4500-12 | 15 | | | |
| Булла – море № 73 | 2,5-3,0 | 1,9 | 3,5 | 3.7<br>4500-4.0 | 5.0<br>5500-10 | 10<br>** | 8-10 | |

**- Из этих интервалов получена нефть.

В таблице приведены данные об изменениях значений ρглин с глубиной по ряду скважин нефте-газовых месторождений ЮКМВ.

**Kadrların hazırlanması:**

1. 15 (on beş) elmlər namizədi və 3 (üç) elmlər doktoru hazırlamışdır;

2. Hal-hazırda 4 (dörd) aspirant və dissertantın elmi rəhbəridir;

3. Son bir neçə ildə Bakı Dövlət Universitetinin professorudur.

**Konfrans və Seminarlar:**

Onun rəhbərliyi altında 2 beynəlxalq konfrans və 3 seminar təşkil edilmiş və keçirilmişdir:

1. 4-cü Azərbaycan Beynəlxalq Geofizika konfransı (Bakı, 24-26 sentyabr 2002-ci il);

2. 5-ci Azərbaycan Beynəlxalq Geofizika konfransı (Bakı, 20-22 oktyabr 2004-cü il);

3. Kompleks geofiziki və geokimyəvi tədqiqatlarda zəlzələlərin öyrənilməsi və proqnozlaşdırılması (Respublika seminar-müşavirəsi), Bakı - 2001-ci il;

4. Azərbaycan neft-geofizikası son 30

ildə (Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 80 illiyinə həsr olunmuş elmi-praktiki konfrans), Bakı - 2001-ci il;

5. Azərbaycanın geotermal resursları və onların xalq təsərrüfatında istifadə edilməsi (Respublika seminarı), Bakı, 25 may 2004-cü il.

**İctimai-siyasi və vətəndaşlıq fəaliyyəti:**

1. O, Yeni Azərbaycan Partiyasının yarandığı gündən xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin siyasi kursunu dəsfəkləmiş və ulu öndərin neft strategiyasının həyata keçirilməsi prosesində fəal iştirak etmişdir. Son bir neçə ildir ki, YAP Yasamal rayonu büro üzvüdür.

2. O, Azərbaycan Rəssamlar və Jurnalistlər İttifaqlarının üzvüdür. Bu istiqamətdə onun əsas fəaliyyəti Azərbaycan xalqının düşmənlərinin, o cümlədən Ermənistanın ölkəmizə qarşı davam edən təca-

vüzkar siyasətini ifşa etməkdən ibarətdir. Bu istiqamətdə son altı ildə o özünün siyasi plakatlardan ibarət 4 fərdi sərgisini nümayiş etdirmiş və bu səpkidə 5 kitab-albomu dərc olunmuşdur:

1. “Müstəqil Azərbaycan Respublikası” - 83 əsər, Bakı, ”Hərbi” Nəşriyyat, 2001-ci il;

2. “Azərbaycan və onun düşmənləri” - 85 əsər, Bakı “Adiloğlu” nəşriyyatı - 2001-ci il;

3. “Terrorizm və qanlı ləpirlər”, Bakı, “Ozan” nəşriyyatı - 2004-cü il;

4. “Terrorizmə yox!” - 121 əsər və xüsusi albom, Bakı,“Çaşıoğlı” nəşriyyatı - 2006-cı il;

5. “Soyqırım” - 29 əsər, Bakı,“İndigo” mətbəəsi - 2006-cı il.

# Elimizin sayılıb-seçilən ağsaqqalı



Mən uzun illərdir ki, proffessor Kərim Kərimovun həyat və yaradıcılığı ilə tanışam. Onun dövlətə, vətənə göstərdiyi xidmətlər göz qabağındadır. Ən əsası da hələ gənc yaşlarından bu günə qədər terrorizmə qarşı apardığı mücadilə təqdirəlayiqdir. Heç bir erməni və qeyri-millətlərin hədə-qorxusundan qorxmayan bu vətənpərvər insan bizim bugünkü gəncliyə bir

nümunədir. Bütün ömrünü vətəninə, xalqına həsr eləmiş bu alimin vətənə layiqli vətəndaş olması bütün Azərbaycan xalqının başucalığıdır.

Azərbaycan elmi və maarifinin çoxəsrlik tarixi var. 1919-cu ildə Bakı Dövlət Universitetinin açılması, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının təsis edilməsi Azərbaycan xalqının ictimai şüurunda unudulmaz mərhələlərdir. Onlar vətənpərvərlik hissləri tərbiyə edir ki, bu da Azərbaycan dövlətçiliyinin yeni keyfiyyət kəsb etdiyi bir dövrdə çox mühüm amildir. Ölkəmizin alimlərinin indiki nəsli sələflərinin zəngin yaradıcılıq təcrübəsini mənimsəmişdir və indi sosial-humanitar elmlər və təbiət elmləri problemlərinin geniş spektri ziyalılarımızın diqqət mərkəzindədir. Kərim Kərimov da bütün bunları diqqət mərkəzində saxlamaqla özünəməxsus yer tutmuşdur.

2001-ci ildə Azərbaycan Respublikasının prezidenti hörmətli Heydər Əliyevin

fərmanı ilə ona “Şöhrət” ordeni verilməsi, 1992-ci ildə Ermənistanın Azərbaycana təcavüzünün ən qızğın dövründə öz şəxsi büdcəsindən Azərbaycan Milli Ordusuna 100.000 manat həcmində yardım etməsi, 1998-ci ildə isə qardaş Türkiyədə zəlzələnin ağır nəticəsini aradan qaldırmaq məqsədi ilə yenə də öz şəxsi büdcəsindən beş min ABŞ dolları məbləğində yardım etməsi, onun uşaq evlərinə, yetimxanalara, kimsəsizlərə və digər yardımları ağsaqqal dünyasının fəxarət pəncərəsidir. O, həm də bizim Milli Elmlər Akademiyasının da fəal üzvlərindən biridir.

Əzizim Kərim Kərimov, sizə uzun ömür, can sağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram.



***Budaq BUDAQOV,***
***Respublika Ağsaqqallar Şurasının sədri, 2010***

# BÖYÜK ALİM,
# KAMİL ŞƏXSİYYƏT...

Professor Kərim Kərimov Azərbaycan neft elminin inkişafında göstərdiyi xidmətlərinə görə təkcə ölkəmizdə deyil, respublikamızın hüdudlarından çox-çox uzaqlarda da tanınan, sayılıb-seçilən alimlərdəndir. Onun ölkəmizin karbohidrogen ehtiyatları barədə gəldiyi nəticələrin özünü artıqlaması ilə doğrultması elmi ictimaiyyətimizə bəllidir. Bu səbəbdən də Kərim müəllimin ölkəmizin neftçi alimləri cərgəsində öncül yerlərdə adının çəkilməsi heç də təsadüfi deyildir. Bu da təsadüfi deyildir ki, Azərbaycan Milli Elmlər Akademiyasının Müxbir üzvü Kərim Kərimov Azərbaycan geofiziklərinin patriarxı kimi tanınır.

Bunlar hamısı öz yerində. Bəllidir ki, Kərim müəllim özündən sonra gələn mütəxəssislər ordusunun yetişməsində də yaxından iştirak edir. Belə ki, o, uzun illər boyu qazandığı təcrübəsini, bilik və bacarığını rəhbərlik etdiyi dissertantlara səxavətlə ötürür...

Kərim Kərimov hələ tələbəlik illərindən başlayaraq dünyada gedən proseslərə biganə qalmayıb. Onun rəssamlıq fırçasından minlərlə siyasi plakat və karikatura ərsəyə gəlib. Onun rəssamlıq fəaliyyətinin mündəricəsi əsasən, narkomaniya, terrorizmə, ermənizmə, dünyada gedən ikili standartlara yox deməkdir. Kərim müəllimin ölkəmizdə, Türkiyədə və MDB məkanında baş tutan rəsm əsərlərinin sərgiləri seyrçilər tərəfindən rəğbətlə qarşılanmışdır.

Yeri gəlmişkən, Kərim müəllim Türkiyədə baş tutan sərgisindən əldə etdiyi 108 min ABŞ dollarının 100 minini milli ordumuzun büdcəsinə keçirməsi də məlumdur. Əlbəttə, mən bir alim kimi istərdim ki, dünya şöhrətli, "Şöhrət" ordeni Kərim Kərimovu AMEA-nın həqiqi üzvləri cərgəsində görüm...

***Əbdülağa CAVADOV,***
***Geologiya-mineralogiya elmləri doktoru, professor***

# ERMƏNİ VƏHŞIİLİKLƏRİNİN SATİRİK GÖRÜNTÜLƏRİ

Geologiya-minerologiya elmləri doktoru, elm və texnika xadimi AMEA-nın müxbir üzvü, dünya şöhrətli alim Kərim Kərimov 50 ildən bəridir ki, neft geologiyası və geofizikası sahəsində dəyərli elmi və təşkilatçılıq fəaliyyəti ilə yanaşı, insanlığı təhdid edən faciələri öldürücü satira atəşinə tutan karikatura yaradıcılığı sahəsində də məhsuldar işi ilə tanınmışdır.

Bu vaxtadək mətbuatda və ayrı-ayrı kitablarda rəssamın karikaturası və siyasi plakatı çap olunmuşdur. Onun Bakıda, İstanbulda, Moskvada, Sankt-Peterburqda və digər şəhərlərdə keçirilən çoxsaylı sərgiləri sülh tərəfdarlarının, humanist insanların böyük rəğbətini qazanmışdır.

Ayrı-ayrı illərdə müharibə qızışdırıcılarının, insan qanı axıdanların, separatçı hərəkatlarla xalqları bir-birinə düşmən

edənlərin, adamların həyatına vaxtsız son qoyanların cinayətləri rəssama saysız-hesabsız mövzular vermişdir. Ermənistanın Azərbaycana işğalçı təcavüzü, on illər boyu ermənilərin azərbaycanlılara qarşı yeritdiyi soyqırım, deportasiya və separatçılıq siyasəti bu vəhşilik və bəlaların hamısını özündə cəmləşdirmişdir. Buna görə də Kərim Kərimov erməni cinayət və xəyanətlərinin satirik görüntülərini oxuculara "Terrorizm, separatizm, narkomaniya və ermənizm hamısı bəşəriyyətə bir bəladır" hökmü ilə ünvanlanmışdır.

*"Başlıca məqsədim Azərbaycana, onun xalqına, dövlətçiliyinə xəyanət etmiş nankor qonşularımızın, erməni separatçılarının XX əsrdən başlayaraq azərbaycanlılara qarşı törətdikləri soyqırım, qanlı terror aktlarını tənqid atəşinə tutmaq, Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaqdır".*

Torpaqlarımızı oda qalayan, soydaşlarımıza divan tutan, insanlığa qarşı dəh-

şətli cinayətlər törədən ermənilərin niyyətləri, əməlləri satirik cizgilərlə göz önündə canlanır. Bu qanlı aksiyaların eybəcərlikləri hər kəsdə hədsiz hiddət və nifrət hisslərini coşdurur.

Karikaturalarda ermənilərin bəşəri əxlaqı, beynəlxalq hüquq normalarını tapdalayan əməlləri ifşa olunursa, siyasi plakatlarda xalqımızın haqq işi, sivil qayda-qanunlara sədaqəti, dözüm və mübarizəsi ön planda göstərilir. "Əsl yumruq", "Xəbərdarlıq", "Dəyərli zərbə", "Layiqli paylar", "Terrorçunun aqibəti", "Cəza", "Şükürlər olsun" kimi plakatlarda ədalətli mübarizədə xalqımızın qələbəsinə inam, düşmənin layiqli cəzasına çatacağı, Azərbaycanın güc və qüdrəti qabarıq əksini tapmışdır.

Rəssam arzu və ümidlərini belə açıqlayır: "Ermənilər, nəhayət, başa düşməlidirlər ki, onlar kiminlə birləşirlərsə birləşsinlər, kiminlə əlbir olurlarsa olsunlar, hansı fitnəkarlığa əl atırlarsa atsınlar,

Azərbaycan xalqının iradəsini qıra bilməyəcəklər. Birmənalı olaraq qeyd etmək istəyirəm ki, Azərbaycan xalqı öz torpaqlarını azad etməyənə qədər bu yoldan dönməyəcəkdir".

Azərbaycanda Atatürk Mərkəzində "Hiddət və nifrət" satirik rəsmlər toplusunun təqdimat mərasimində elmi fəaliyyəti və bədii yaradıcılığı ilə zəngin bioqrafiya sahibi olan alim-rəssamın xidmətləri qədirbilənliklə vurğulandı, yeni kitabın səciyyəvi cəhətləri diqqət mərkəzində oldu.

Mərasimi giriş sözü ilə açan Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, millət vəkili, AMEA-nın müxbir üzvü Nizami Cəfərov yeni kitabın redaktoru kimi bu albomu erməni millətçi-terrorçularının iç üzünü açıb göstərməkdə, xalqımızın başına gətirilən bəlaları dünya ictimaiyyətinə çatdırmaqda təsirli bir mənbə kimi səciyyələndirdi, alim-rəssamın bu sənət mübarizəsinin yüksək vətəndaş yanğısından qaynaqlandığını söylədi.



*Əbəs yerə cəhd edənlər*
*Boşuna çalışanlar*
*You can`t stop it*
*Вам не остановить!*

Respublika Ağsaqqallar Şurasının sədri, akademik Budaq Budaqov, millət vəkilləri - professor Xanhüseyn Kazımlı, "Azərbaycan" qəzetinin baş redaktoru, Bəxtiyar Sadıqov, politoloq Fazil Qəzənfəroğlu, bildirdilər ki, Kərim Kərimov uzun illər boyu elmin nüfuzlu bir sahəsində yüksək nailiyyətlər qazanmaqla yanaşı, fırçanı yerə qoymadan şərə, vəhşiliyə qarşı ardıcıl mübarizə aparmış Kərim Kərimovun bu fəaliyyətini humanist ideyalara dərin bağlılıq kimi dəyərləndirdilər. Onlar rəssamın karikatura və plakatlar toplularını xarici ölkələrdə yaymağın, sərgilərini təşkil etməyin vacibliyini də vurğuladılar.

Bakı Dövlət Universitetinin prorektoru, professor İsmayıl Əliyev və Neft Akademiyasının prorektoru, professor İmran Cəfərzadə bildirdilər ki, çağdaş dünyanın tanınmış geofiziklərindən biri, bir sıra beynəlxalq akademiyaların üzvü, 500-dən çox elmi əsərin, 20 ixtira və bir sıra patentlərin müəllifi olan Kərim Kərimovun

həm də 6 minə yaxın karikatura və siyasi plakat yaratması onu Azərbaycan elminin və incəsənətinin görkəmli xadimi kimi tanıtmışdır.




rəssam: Kərim Kərimov

Dağıdanlar

Alimlər öz həmkarlarının məşhur rəssam olmasından, rəssamlar isə dünya şöhrətli geofizik olmasından qürur duyurlar.

Xalq rəssamı Arif Hüseynov Kərim Kərimovu Əzim Əzimzadə satirik rəssamlıq məktəbinin istedadlı nümayəndəsi kimi səciyyələndirdi, onun yeni albomundakı karikatura və siyasi plakatların yüksək professionallıqla yaradıldığını söylədi.

***Tahir AYDINOĞLU,***
***Əməkdar jurnalist,***
***"Xalq qəzeti"***

# Mündəricat

*KƏRİM MƏMMƏDXAN OĞLU KƏRİMOV* .................... 6

*КЕРИМ МАМЕДХАН ОГЛЫ КЕРИМОВ* ............. 13

*KERIM MAMMEDKHAN OGLU KERIMOV* .......... 21

**كريم بن محمدخان كريموف** ............................................... 28

*KERİM MEMMEDHAN OĞLU KERİMOV* ............. 33

*ZƏLZƏLƏ KİTABI BARƏDƏ*.................................... 37

*ELM FƏDAİSI KƏRİM KƏRİMOV, Zəlzələni öncədən kəşf edən alim, karikaturaçı-rəssam*........... 40

*KƏRİM MƏMMƏDXAN OĞLU KƏRİMOV* ............ 63

*ЕГО РАЗРАБОТКИ В ОБЛАСТИ ПРОНОЗА ЗЕМЛЕТРЯСЕНИЙ ИМЕЮТ ОБЩЕЧЕЛОВЕЧЕСКОЕ ЗНАЧЕНИЕ* ................. 65

*Kərim Kərimovun rəsmləri "Böyük Ermənistan" xülyası iləyaşayan erməni millətçilərinin, terror təşkilatlarının himayədarlarını ifşa edir*................... 68

*"TERRORİZM VƏ QANLI LƏPİRLƏR" ALBOM-KİTABINA RƏY* ......................................................... 81

*"TERRORISM AND BLOODY FOOTSTEPS" CARTOON ALBUM*................................................... 85

*DÜNYA ŞÖHRƏTLI ALIM, KAMIL ŞƏXSIYYƏT* .... 89

*Professor Kərim Kərimovun Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvlüyünə seçildiyi vaxtdan (2001-ci il) geologiya elminin inkişafı yolunda gördüyü işlər:* ........................................................ 103

*Elimizin sayılıb-seçilən ağsaqqalı* ........................... 108

*BÖYÜK ALİM, KAMİL ŞƏXSİYYƏT*….................... 111

*ERMƏNİ VƏHŞIİLİKLƏRİNİN SATİRİK GÖRÜNTÜLƏRİ* .................................................... 113

# Qeydlər

# DÜNYA ŞÖHRƏTLİ ALİM, KARİKATURAÇI-RƏSSAM

Naşir: Ceyhun Əliyev
Dizayner: Elnarə Abbasova
Texniki redaktor: Ülvi Arif
Operator: Asim Səfərov

---

Yığılmağa verilmişdir: 17.01.2017
Çapa imzalanmışdır: 10.03.2017
Ş.ç.v. 3,75. Tiraj 300.
"Ecoprint" nəşriyyatının
mətbəəsində çap olunmuşdur.
Tel.: +994 55 216 09 91
müəllifin əlaqə nömrəsi:
Tel.: +994 50 278 91 75
+994 55 799 88 95